QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 037 (5509) 24 **fevral** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan artıq beynəlxalq nəqliyyat qovşağına çevrilməkdədir"

*Prezident İlham Əliyev "Boeing" şirkətinin nümayəndə heyətini qəbul edib*



Səh 2

### Milli Məclisin növbəti plenar iclasında 19 məsələyə baxılıb

Bax 7

Fevralın 23-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Milli Məclisin deputatı Fəttah Heydərovun ünvanına yubiley təbriki səsləndi. Milli Məclisin sədri Oqtay Əsədov bu gün Fəttah Heydərovun 80 yaşının tamam olduğunu söyləyib, bu münasibətlə Azərbaycan Prezidentinin onu "İstiqlal" ordeni ilə təltif etdiyini xatırladıb. Parlamentin rəhbərliyi də yubilyar deputatı təbrik edib. Plenar iclasda 19 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra deputatlar günün aktual məsələlərinə münasibət bildirdilər. İlk növbədə, Azərbaycan dövlətinin yürütdüyü humanist siyasətdən bəhs olundu...

### ABŞ konqresmeni 20 Yanvar və Xocalı faciələrinin ildönümü ilə bağlı bəyanatla çıxış edib

Bax 3

ABŞ Konqresinin demokrat üzvü, Nyu-Cersi ştatını təmsil edən Donald Peyn 20 Yanvar və Xocalı faciələrinin ildönümü ilə bağlı bəyanatla çıxış edərək bu faciələrdə həyatını itirmiş insanların xatirəsini anıb. Konqresin üzvü bəyanatında 1991-ci ildə müstəqilliyini bəyan edən Azərbaycanın paytaxtı Bakı şəhərinə sovet hökumətinin 1990-cı il yanvarın 20-də qoşun yeridərək çoxsaylı insanın həyatına son qoyduğunu vurğulayıb. Konqres üzvü, həmçinin Xocalıda həlak olmuş insanların xatirəsini yad edərək keçmiş sovet respublikalarında baş vermiş müharibələrdə həyatını...

### Rusiyalı jurnalistin adı Azərbaycan XİN-in arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Bax 8

Rusiya Federasiyası vətəndaşı, "Rodnik" qəzetinin jurnalisti Svetlana Sarıçeva Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib.Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubunda Svetlana Sarıçeva 2012-ci ildə Dağlıq Qarabağa səfər etdiyini bildirib və səfərinin doğuracağı nəticələr barədə məlumatlı olmadığını ifadə edib. O, bu səfərin Azərbaycan Respublikasına və xalqına qarşı heç bir halda hörmətsizlik...

**Birinci vitse-prezident Mehriban Əliyeva İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədrini qəbul edib** 3



**YAP İlham Əliyevin Prezidentliyə namizədliyinin qeydə alınması üçün seçici imzalarını MSK-ya təqdim etdi** 4

**"Badam ağacı çiçəkləyəndə" tamaşasının təqdimatı olub** 4



**Siyavuş Novruzov: "Azərbaycanda siyasi baxışlarına görə həbs edilən yoxdur"** 4



**Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub** 5



**"Xocalı soyqırımı XX əsrin ən vəhşi və ən qəddar soyqırımıdır"** 11




9 **Aydın Əliyev: "Yaxşı olardı ki, Niderland Krallığı Xocalı soyqırımını tanıyardı"**



12 **"Əli Kərimli, gəl sənə sübut edim ki, sən siyasətçi deyilsən"**



16 **"Mançester Siti" "Real" və "Yuventus"a rəqib oldu**



# "Azərbaycan artıq beynəlxalq nəqliyyat qovşağına çevrilməkdədir"

*Prezident İlham Əliyev "Boeing" şirkətinin nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də "Boeing Commmercial Airplanes" şirkətinin prezidenti və baş icraçı direktoru Kevin Mak Alisterin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə "Boing" şirkəti arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyini və bu şirkətin istehsal etdiyi 20-yə yaxın təyyarənin Azərbaycan mülki aviasiyası tərəfindən alındığını vurğuladı. Ölkəmizin hazırda çox müasir və keyfiyyətli hava donanmasına malik olduğunu qeyd edən Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Hava Yollarının çox yaxşı reputasiyası var. Dövlətimizin başçısı Azərbaycanın artıq beynəlxalq nəqliyyat qovşağına çevrilməkdə olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycanda nəqliyyat və infrastruktur sahəsində böyük nailiyyətlərin əldə edildiyini bildirərək, son illər ölkəmizdə 6-sı beynəlxalq aeroport olmaqla 7 yeni aeroportun inşa edildiyini, ən müasir səviyyədə yükdaşıma və nəqliyyat təyyarələrin fəaliyyət göstərdiyini vurğuladı. Eyni zamanda, Prezident İlham Əliyev Azərbaycanda bütün növ müasir gəmilər istehsal edən gəmiqayırma zavodu, müasir dəmir yolu infrastrukturu yaradıldığını və avtomobil yollarının inşa edildiyini dedi. Dövlətimizin başçısı yüklərin hava nəqliyyatı vasitəsilə daşınmasına toxunaraq, Azərbaycanın təkcə regionda deyil, qlobal karqo trafikdə artıq mühüm rol oynadığını vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın "Boing" şirkəti ilə əməkdaşlığının bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə etdi.

Qonaq Azərbaycanla, o cümlədən AZAL şirkəti ilə əməkdaşlıqdan böyük məmnunluq hissi duyduğunu dedi və ölkəmizlə çox güclü əməkdaşlığın həyata keçirildiyini vurğuladı. O, "Boing" şirkəti adından Azərbaycanın gələcək inkişafına böyük inamla yanaşdıqlarını bildirərək, əlaqələrimizin bundan sonra daha da genişlənəcəyinə əminliyi ifadə etdi. Görüşdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin bir çox sahələri əhatə etdiyi bildirildi və əlaqələrimizin uğurla inkişaf etdiyi vurğulandı.

# Azərbaycan, Türkiyə, Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşü olacaq



***Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, deputatlar Sevinc Fətəliyeva, Asim Mollazadə və Cavanşir Feyziyev Azərbaycan, Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin üçtərəfli görüşündə iştirak etmək üçün fevralın 26-dan martın 1-dək Türkiyənin paytaxtı Ankarada səfərdə olacaqlar.***

Parlamentin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, toplantıda bir sıra regional məsələlər müzakirə olunacaq, nümayəndə heyətlərinin beynəlxalq təşkilatlarda qarşılıqlı faydalı əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılacaq. Tədbirin sonunda hər üç ölkənin qanunverici orqanlarının xarici əlaqələr komitələri arasında əməkdaşlığa dair protokol imzalanacaq.

Səfər çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Baş nazir Binəli Yıldırım, Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman, xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşlər nəzərdə tutulub.

## Rəsmi xronika

Prezident İlham Əliyev uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən müavinətin artırılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev sosial müavinətlərin məbləğinin artırılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev aqrar sahənin texniki təminatının gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

İordaniyanın Kralı II Abdullah ibn Al Hüseyn Azərbaycan Prezidenti İlham Əliyevə məktub göndərib. Məktubda deyilir: "Zati-aliləri, Sizə səmimi salamlarımı çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik və müvəffəqiyyət arzulayır, ölkənizin inkişafı və xalqınızın rifahı naminə səylərinizi yüksək qiymətləndirməkdən məmnunluq hissi duyuram. İordaniya Haşimilər Krallığı ilə Azərbaycan Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 25-ci ildönümünü qeyd etmək, ölkələrimiz arasında müxtəlif sahələrdə ikitərəfli əməkdaşlığı genişləndirmək səylərimizə əsaslanan tarixi dostluq münasibətlərimizdən dərin iftixar hissi keçirmək mənə böyük məmnunluq bəxş edir.

Qardaş Azərbaycana səfərlərim zamanı Zati-alinizin ölkənizin tərəqqisi və rifahı üçün davamlı töhfəsini əks etdirən, iqtisadiyyat, siyasət, mədəniyyət və elm sahələrində qazanılan böyük nailiyyətlərin şahidi olmuşam. İnanıraq ki, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan regional və qlobal təhlükəsizliyin, sabitliyin təmin olunmasında oynadığı mühüm rolunu davam etdirəcək. Mən, həmçinin bu xoş fürsətdən istifadə edərək ikitərəfli əməkdaşlığımızı möhkəmləndirmək, strateji tərəfdaşlığımıza söykənərək bu münasibətləri xalqlarımızın ümumi maraqlarına və İslam ümmətinin ortaq dəyərlərinə xidmət etmək üçün daha yeni səviyyələrə qaldırmaq, eləcə də ümumi məqsədimiz olan sülhə, təhlükəsizliyə və sabitliyə nail olmaq istiqamətində səylərimizi dəstəklədiyimizi bir daha bəyan edirəm. Zati-aliləri, Sizə müvəffəqiyyət və cansağlığı, fəaliyyətinizə Uca Allahdan xeyir-dualar diləyir, əziz Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayıram".

* * *

Prezident İlham Əliyev Estoniya Prezidenti Kersti Kalyulayda təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli xanım Prezident, Estoniya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Əminəm ki, Azərbaycan ilə Estoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir. Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Estoniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Azərbaycan ilə İran arasında dostluq və qardaşlıq münasibətləri mövcuddur”

*Birinci vitse-prezident Mehriban Əliyeva İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədrini qəbul edib*





***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 23-də İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkamanı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin xalqlarımızın əsrlər boyu malik olduğu mədəni, tarixi bağlantılara söykəndiyini qeyd etdi. “Biz bu tarixi və mədəni irsə çox diqqətlə yanaşırıq”, - deyən Birinci vitse-prezident bu gün dövlətlərimiz və xalqlarımız səviyyəsində, ölkələrimiz arasında qarşılıqlı hörmətə və dostluğa əsaslanan əlaqələrin yaradılmasından məmnunluğunu ifadə etdi. Son beş il ərzində dövlət başçılarının 10 görüşünün keçirilməsini ikitərəfli münasibətlərin yaxşı göstəricisi kimi dəyərləndirən Azərbaycanın Birinci vitse-prezidenti bu görüşlərin əməkdaşlığımızın möhkəmlənməsi işinə öz töhfəsini verdiyini dedi və qeyd etdi ki, əlaqələrimiz bir çox sahələri, o cümlədən iqtisadiyyat, nəqliyyat və əlbəttə, çox mühüm olan mədəniyyət sahələrini əhatə edir. Birinci vitse-prezident Mehriban Əliyeva keçən il İranda Azərbaycan mədəniyyət günlərinin, həmçinin 2017-ci ildə ölkəmizdə elan olunmuş “İslam Həmrəyliyi İli” çərçivəsində “Azərbaycan İslam mədəniyyətinin incisidir” adlı fotosərginin uğurla keçirilməsinin mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd etdi. İranın mədəniyyət günlərinin də ölkəmizdə yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə edən Birinci vitse-prezident İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkamanın Bakıda İran kinosu günlərinin keçirilməsi ilə əlaqədar ölkəmizə səfərinin də uğurlu keçəcəyinə ümid etdiyini bildirdi.

Ötən il Azərbaycan Respublikasının İranda mədəniyyət günlərinin ən yüksək səviyyədə keçirilməsi üçün İran tərəfinin bütün səylərini əsirgəmədiyini deyən Abuzər İbrahimi Türkaman Azərbaycan tərəfinin ölkəmizdə İran kinosu günlərinin təşkil olunması üçün hər cür şərait yaratmasını yüksək qiymətləndirdi. O qeyd etdi ki, ölkələrimiz arasında əlaqələr mədəni-tarixi bağlılıqlara əsaslanır və bu gün bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanlar mövcuddur.

Görüşdə bu il Naxçıvanın İslam mədəniyyəti, öz növbəsində, Təbrizin İslam turizmi paytaxtları elan olunması ilə bağlı əməkdaşlıq məsələləri müzakirə edildi, mədəniyyət və turizm sahəsində müxtəlif layihələrin həyata keçirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

## ABŞ konqresmeni 20 Yanvar və Xocalı faciələrinin ildönümü ilə bağlı bəyanatla çıxış edib

ABŞ Konqresinin demokrat üzvü, Nyu-Cersi ştatını təmsil edən Donald Peyn 20 Yanvar və Xocalı faciələrinin ildönümü ilə bağlı bəyanatla çıxış edərək bu faciələrdə həyatını itirmiş insanların xatirəsini anıb.

Konqresin üzvü bəyanatında 1991-ci ildə müstəqilliyini bəyan edən Azərbaycanın paytaxtı Bakı şəhərinə sovet hökumətinin 1990-cı il yanvarın 20-də qoşun yeridərək çoxsaylı insanın həyatına son qoyduğunu vurğulayıb. Konqres üzvü, həmçinin Xocalıda həlak olmuş insanların xatirəsini yad edərək keçmiş sovet respublikalarında baş vermiş müharibələrdə həyatını itirmiş şəxslərin xatirəsinin əbədiləşdirilməli olduğunu



bildirib.Bəyanatın sonunda konqresmen planetimizdə azadlıq uğrunda müharibələrdə həlak olmuş bütün insanların ABŞ Konqresi tərəfindən ehtiramla yad edilməli olduğunu vurğulayıb.

### Moldova Prezidenti Azərbaycana gələcək



Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə martın 15-17-də keçiriləcək VI Qlobal Bakı Forumunda Moldova Prezidenti İqor Dodon iştirak edəcək. Komitənin mətbuat xidmətindən verilən məlumata görə, bu məqsədlə İqor Dodonun Azərbaycana səfəri nəzərdə tutulub. Forum çərçivəsində “Balkan regionunda hazırkı və gələcək vəziyyət - regional təhlükəsizlik məsələlərinin proqramı və ya yeni geosiyasi şahmat lövhəsi?” mövzusunda keçiriləcək iclasda Moldova Prezidenti İqor Dodonun çıxışı planlaşdırılır. İqor Dodon 13 noyabr 2016-cı tarixində Moldova prezident seçkilərinin ikinci turunda Moldova Prezidenti seçilib.

## Samir Şərifov Hindistanın maliyyə naziri ilə görüşüb

***Hindistanın maliyyə naziri Arun Jaitley Nyu-Dehli şəhərində Azərbaycanın maliyyə naziri Samir Şərifovla görüşüb. Hindistanın Azərbaycandakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, nazirlər iki ölkə arasında əməkdaşlığın, xüsusilə də ticarət və investisiya, ticarət və biznes nümayəndə heyətlərinin mübadiləsinin genişləndirilməsi yollarını müzakirə ediblər. Tərəflər, həmçinin üzərində danışıqlar aparılan ikitərəfli sazişlər, ikitərəfli investisiya Sazişi və ikiqat vergitutmanın aradan qaldırılması Sazişi ilə bağlı da müzakirələr aparıblar.***



Görüşdə bildirilib ki, Hindistan ilə Azərbaycan arasında tarixi əlaqələrə əsaslanan yaxın dostluq münasibətləri və inkişaf edən ikitərəfli əməkdaşlıq mövcuddur. Hindistanın “ONGC Videsh” şirkəti Azərbaycanın neft-qaz sektorunda paya malik tərəfdaşdır. 2017-ci ildə Hindistanın Azərbaycana ixracı 60 faizdən çox artıb. Hindistan və Azərbaycan arasında ümumi ikitərəfli ticarət 460 milyon ABŞ dollarına çatıb. Azərbaycanlı peşəkarlara və tələbələrə Hindistanın müəssisələrində xərclərin tam qarşılandığı təlim proqramları təklif edən Hindistanın Texniki və İqtisadi Əməkdaşlıq Proqramı (ITEC) üzrə Hindistan və Azərbaycan arasında bilik və bacarıqların artırılması sahəsində inkişaf edən əməkdaşlıq mövcuddur.

# “Badam ağacı çiçəkləyəndə” tamaşasının təqdimatı olub





Fevralın 22-də Akademik Milli Dram Teatrında Xocalı faciəsinin 26-cı ildönümü ilə bağlı “Badam ağacı çiçəkləyəndə” tamaşasının premyerası olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Heydər Əliyev Fondunun vitse-prezidenti, “Xocalıya ədalət!” beynəlxalq kampaniyasının təşəbbüskarı Leyla Əliyeva, xarici ölkələrin Azərbaycandakı səfirliklərinin nümayəndələri, gənclər təşkilatlarının təmsilçiləri iştirak ediblər.

Tamaşadan əvvəl Xocalı soyqırımı, həmçinin Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş torpaqları barədə məlumat verilib. Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalının dinc əhalisinə qarşı Ermənistan silahlı birləşmələri soyqırımı törədiblər. Bu qanlı qırğında 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq və 70 ahıl qətlə yetirilib, 1275 nəfər girov götürülüb, 150 nəfərin taleyi isə bu günə qədər məlum deyil. Faciə zamanı Xocalının 487 sakini, o cümlədən yetkinlik yaşına çatmamış 76 uşaq əlil olub, 26 uşaq hər iki valideynini itirib. Sonra tamaşaya baxış olub.

“Badam ağacı çiçəkləyəndə” tamaşası Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun təşkilatçılığı ilə “Xocalıya ədalət!” kampaniyası çərçivəsində hazırlanıb. Tamaşa Xocalıdan didərgin düşmüş sakinlərin xatirələri üzərində qurulub. Qayğısız həyat yaşayan xocalılar bir gecədə vəhşicəsinə qətlə yetirilirlər, erməni silahlıları tərəfindən əsl soyqırımına məruz qalırlar.

Tamaşa Akademik Milli Dram Teatrının səhnəsində Gənc Tamaşaçılar Teatrının yaradıcı heyəti tərəfindən ərsəyə gətirilib. “Badam ağacı çiçəkləyəndə” tamaşasında Gənc Tamaşaçılar Teatrının aktyor heyəti ilə yanaşı, kütləvi səhnələrdə Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri də yer alıblar.

Tamaşanın “Badam ağacı çiçəkləyəndə” adlandırılması heç də təsadüfi deyil. Çünki badam ağacı çiçəkləməyə başlayan ilk ağacdır. “Xocalıya ədalət!” kampaniyasının loqosunda əks olunmuş badam çiçəyi Azərbaycanın Dağlıq Qarabağ regionunun qədim yaşayış məskənlərindən olan Xocalıda 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər tərəfindən törədilmiş soyqırımına münasibətdə ədalətin təmin edilməsinə və bu cür qəddar əməllərin təkrar olunmamasına ümidi əks etdirir. Rejissor Gülnar Hacıyevanın quruluş verdiyi tamaşada əsas obrazları aktyorlar Kərəm Hadızadə, Zemfira Əbdülsəməd, Mirzağa Mirzəyev, Elnur Kərimov, Asya Atakişiyeva, Güşvər Şərifova, Mehriban Hüseynova, Zülfiyyə Alhüseynova, Elşən Şıxəliyev və Manaf Dadaşov canlandırıblar. Tamaşa başa çatandan sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aktyorlarla görüşüb qısa söhbət edib. Sonda xatirə şəkli çəkdirilib.





# YAP İlham Əliyevin Prezidentliyə namizədliyinin qeydə alınması üçün seçici imzalarını MSK-ya təqdim etdi

Yeni Azərbaycan Partiyası İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin qeydə alınması üçün toplanmış seçici imzalarını Azərbaycan Respublikası Seçki Məcəlləsinin tələblərinə və MSK tərəfindən qəbul edilmiş təlimata müvafiq olaraq, tələb edilən sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir.

Qeyd edək ki, Seçki Məcəlləsinin tələbinə müvafiq olaraq, prezidentliyə namizədin müdafiəsi üçün tələb olunan 40 mindən az olmayan sayda seçici imzası 60-dan az olmayan seçki dairəsinin hər birinin ərazisindən azı 50 imza olmaq şərtilə toplanmalıdır. Yeni Azərbaycan Partiyası İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası Prezidentliyinə namizədliyinin müdafiəsi üçün mövcud 125 dairənin hər birinin ərazisində imzatoplama aksiyası keçirmiş və kampaniyanı uğurla başa çatdırmışdır. Xatırladaq ki, Yeni Azərbaycan Partiyasının 2018-ci il fevral ayının 8-də VI Qurultayı keçirilmişdir. Qurultayda 2018-ci il aprelin 11-də keçiriləcək prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidentliyinə namizədliyinin irəli sürülməsi barədə yekdilliklə qərar qəbul edilmişdir.

# Siyavuş Novruzov: “Azərbaycanda siyasi baxışlarına görə həbs edilən yoxdur”



“Prezident İlham Əliyevin cəza siyasətinin yüngülləşdirilməsi ilə bağlı sərəncamından sonra 1500-dən artıq insanın cəzasının yüngülləşdirilməsi prosesinə başlanılıb”. SİA-nın verdiyi məlumata görə, bunu Milli Məclisin dünən keçirilən plenar iclasında parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, hakim Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini Siyavuş Novruzov deyib.

Komitə sədri çıxışında bildirib: “1993-cü ildən 70 əfv sərəncamı, 11 amnistiya aktı qəbul olunub. Bütün bunlar Heydər Əliyevin siyasətinin əsasını təşkil edir. Müəyyən mətbuat orqanları bunu başqa istiqamətlərdə qələmə verməyə çalışır. Azərbaycanda siyasi baxışlarına görə həbs edilən yoxdur. Düzdür, ayrı-ayrı hakimiyyətlər dövründə repressiyalar olub, amma Yeni Azərbaycan Partiyası hakimiyyətdə olan zaman belə hallara yol verilməyib. Bəzən mənim fikirlərimlə bağlı xəbərləri fərqli təqdim etməyə çalışırlar. Bir daha bəyan edirəm ki, Azərbaycanda siyasi məhbus yoxdur, törətdiyi cinayətlərə görə cəzasını çəkən şəxslər var”.

# Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Saatlıda vətəndaşlarla görüşüb



Fevralın 23-də nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin fevral ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Saatlı şəhərində görüş keçirib. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Saatlı şəhərində Saatlı, Hacıqabul, Sabirabad rayonlarının və Şirvan şəhərinin sakinlərinin iştirak etdiyi qəbulda vətəndaşların telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələlərlə bağlı müraciətləri dinlənilib və əksər məsələlər yerində həllini tapıb. Bir sıra müraciətlərlə bağlı nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Bəzi vətəndaşların nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətləri isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb. Regiona səfəri çərçivəsində Ramin Quluzadə aidiyyəti rayonların telekommunikasiya qovşaqları, poçt filialları, eləcə də, Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin regional bölmələrinin və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə müşavirə keçirib. Sektor üzrə mövcud durum, çatışmazlıqlar, nöqsanlar, vətəndaş şikayətləri üzrə geniş müzakirələrin aparıldığı müşavirədə həyata keçirilən islahatların vətəndaş məmnunluğu və xidmət keyfiyyətinin yüksəldilməsinə yönəldiyi diqqətə çatdırılıb. Toplantıda nazir müvafiq sahə rəhbərlərinə hər bir vətəndaş müraciətinin operativ araşdırılması və qanunvericiliyə uyğun həll edilməsi haqqında tapşırıqlar verib.

# Mübariz Qurbanlı: “Azərbaycan və İran xalqları arasında dini-mənəvi sahədə əlaqələr inkişaf edir”



***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı fevralın 23-də Azərbaycanda səfərdə olan İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkaman ilə görüşüb.***

Dövlət Komitəsinin mətbuat xidmətindən bildiriblər ki, ölkələrimiz münasibətlərinin dinamik inkişaf etdiyini bildirən Mübariz Qurbanlı dövlət başçılarının qarşılıqlı səfərlərinin və mötəbər tədbirlərin keçirilməsinin əlaqələrimizin yüksək səviyyəsinin bariz nümunəsi olduğunu vurğulayıb. Azərbaycan ilə İran arasında bütün sahələrdə olduğu kimi, din və mədəniyyət sahəsində də səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Ötən ilin ölkəmizdə Prezident İlham Əliyev tərəfindən “İslam Həmrəyliyi İli” elan olunduğunu diqqətə çatdıran Mübariz Qurbanlı bu çağırışın dövlətimizin İslam birliyinə həssas münasibətinin göstəricisi olduğunu deyib. Bu çərçivədə ilk beynəlxalq konfransın “İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında” mövzusunda Tehranda keçirildiyini bildirən Komitə sədri tədbirin əhəmiyyətinə toxunub. O, dinlərarası və sivilizasiyalararası dialoq formatında nəzərdə tutulan bu prosesin davamlı xarakter daşıdığını və bu il də davam etdiriləcəyini bildirib.

Görüşdə Komitə sədri dinə dövlət qayğısından danışarkən bildirib ki, buna əyani sübut olaraq ölkəmizdə Prezident İlham Əliyev tərəfindən Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Qeyd edib ki, Fond Azərbaycanda mövcud dini konfessiyaların fəaliyyətlərinin dəstəklənməsi, mənəvi dəyərlərin qorunması və inkişafı, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi istiqamətində fəaliyyət göstərir. O, İnstitutun yaradılmasını dinimənəvi mühitin qorunub saxlanılmasına və inkişaf etdirilməsinə, bu sahə üzrə ixtisaslı milli kadrların hazırlanmasına mühüm töhfə adlandırıb. İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkaman din və mədəniyyət üzərində qurulan əlaqələrin daha da genişlənməsinin vacibliyindən danışıb. Qeyd edib ki, dövrümüzdə islami dəyərlərin olduğu kimi təbliğ və təşviq edilməsinə, dinimiz haqqında mənfi imicin aradan qaldırılmasına ciddi ehtiyac yaranıb. A.İ.Türkaman bu istiqamətdə dövlətimiz tərəfindən atılan addımları yüksək qiymətləndirib. Azərbaycanda Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasından məmnunluğunu ifadə edib, qurumlara fəaliyyətlərində uğurlar arzulayıb.

Sonda qonağa Azərbaycanın tolerantlıq mühitini, multikultural dəyərlərini, eyni zamanda, ermənilərin işğal edilmiş ərazilərimizdəki dini ibadətgahlara qarşı törətdikləri vandalizmi əks etdirən kitablar hədiyyə olunub. Qeyd edək ki, görüşdə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, sədr müavinləri Səyavuş Heydərov, Gündüz İsmayılov və İran İslam Respublikasının ölkəmizdəki Mədəniyyət Mərkəzinin sədri Əsgər Farsi, eləcə də nümayəndə heyətinin digər üzvləri də iştirak ediblər.

# Robert Sekuta: “Əsas vəzifələrimizdən biri Dağlıq Qarabağ...”



ABŞ Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı işi davam etdirəcək. Bunu jurnalistlərə ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta deyib. R.Sekuta qeyd edib: “Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına nail olmaq üçün ATƏT-in Minsk qrupunun işinə fokuslanmağa davam edəcəyik”. ATƏT-in Minsk qrupu çərçivəsində ABŞ-ın fəallığından danışan diplomat bildirib ki, bir müddət əvvəl həmsədrlər, o cümlədən Minsk qrupunun amerikalı həmsədri regiona səfər etdi və Azərbaycanda rəsmi şəxslərlə, həmçinin Masazırda yaşayan məcburi köçkünlərlə görüşlər keçirdi. Səfir əlavə edib ki, bütün bu görüşlərin məqsədi mürəkkəb vəziyyətdən çıxış yollarını axtarmaqdır: “ABŞ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına sadiqdir. Bizim əsas vəzifələrimizdən biri münaqişə tərəflərini kompromissə gətirməkdir”.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisində mükafatların təqdimatı olub



Fevralın 23-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Azərbaycan Respublikasının orden və medallarının, Naxçıvan Muxtar Respublikasının fəxri adının döş nişanlarının və vəsiqələrinin təqdimat mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları ölkəmizin fəxri adlarına, yüksək orden və medallarına layiq görülmələri münasibətilə təbrik edərək deyib: Ölkəmizin sosial-iqtisadi inkişafının təməlində ümummilli liderimiz Heydər Əliyevin siyasi kursu dayanır. O ölkə inkişaf edir ki, orada bütün sahələrin inkişafı təmin olunsun. Bu gün Ulu Öndərin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycanda bütün sahələr inkişaf edir. Müxtəlif sahələrdə çalışan insanlar isə ölkəmizin inkişafına öz töhfələrini verirlər.





Ali Məclisin Sədri deyib: Hər bir müstəqil ölkənin ən qiymətli sərvəti onun vətənpərvər insanlarıdır. Çünki vətənpərvər insanları olan ölkənin müstəqilliyi və gələcəyi də etibarlı olur. Əgər bu gün ölkəmiz inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutubsa, onda müxtəlif sahələrdə çalışan, bu inkişafda payı olan insanların əməyi də qiymətləndirilməlidir. Əməyi qiymətləndirilən, dövlət mükafatlarına layiq görülən insanların fəaliyyəti isə çalışdıqları kollektivlər üçün nümunədir.

Ali Məclisin Sədri təltif olunanlara təşəkkür edib, onlara işlərində uğurlar arzulayıb. Sonra Ali Məclisin Sədri Azərbaycan Respublikasının orden və medallarını, Naxçıvan Muxtar Respublikasının fəxri adının döş nişanlarını və vəsiqələrini təltif olunanlara təqdim edib.

Təltif olunanlardan Arif Qasımov, Aydın Quliyev, Şahid İbrahimov, Faiq Ağayev, Sənan Novruzov, Asəf Məmmədov, Səhət Həbibbəyli, Sucaxan Novruzov, Teymur Rzayev və Səxavət Salmanov əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq edərək deyiblər ki, bu gün Naxçıvan Muxtar Respublikasında bütün sahələr inkişaf etdirilir. Yeni sosial obyektlərin, inzibati binaların, müasir yolların istifadəyə verilməsi insanların rahat yaşayışını təmin edib. Eyni zamanda, hər bir sahədə çalışanlar üçün hərtərəfli iş şəraiti yaradılıb. Təltif olunanlar bundan sonra da səylə çalışacaqlarına və ulu öndər Heydər Əliyevin siyasi xəttinə daim sadiq qalacaqlarına söz veriblər.

Naxçıvan Muxtar Respublikasının “Əməkdar mühəndisi” fəxri adı ilə təltif olunan Mübariz Məmmədov minnətdarlıq edərək deyib: Dövlət mükafatı ilə təltif olunmağım çalışdığım kollektivin əməyinə verilən yüksək qiymət və böyük etimaddır. Mən bu gün çox xoşbəxtəm. Çünki bütün ailə üzvlərim yüksək dövlət etimadına layiq görülüb. Hər iki övladım muxtar respublikada yaradılan təhsil şəraitindən bəhrələnərək ali məktəblərə qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb. Onların Ali Məclis Sədri ilə görüşü bir valideyn kimi məni çox qürurlandırdı. Bundan başqa, həyat yoldaşım “İlin ən yaxşı müəllimi” adına layiq görülüb. Həm çalışdığım kollektiv, həm də ailəm adından söz verirəm ki, göstərilən yüksək etimadı işimizlə doğruldacaq, bundan sonra da ölkəmizin inkişafına töhfə verəcəyik.

# "Xocalıya ədalət" beynəlxalq kampaniyası Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində işləri daha da sürətləndirib, səmərəsini artırıb

***- Nazim müəllim, Xocalı soyqırımının növbəti ildönümüdür və xalqımızın başına gətirilən bu faciə ən qanlı, amansız qətliam kimi tarixin yaddaşına düşüb. Erməni təcavüzünü ifşa edən, ermənilərin insanlığa zidd olaraq açıq şəkildə soyqırımı törətməsini pisləyən, Ermənistanın işğalçı dövlət olduğunu təsdiqləyən ardıcıl fəaliyyətə rəğmən ermənilərin və ermənipərəst qüvvələrin saxta təbliğatı erməni qəddarlığının bu acı nəticəsinin bütün dünya ictimaiyyəti tərəfindən birmənalı olaraq qəbul edilməsində süni maneələrə səbəb olur...***



*Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimovun yap.org.az-a müsahibəsi*

- Biz yüz illərdir anti-Azərbaycan, anti-türk ideologiyası altında yalan və saxta təbliğatla dünyanı çaşdırmağa çalışan bir ideologiya ilə mübarizə aparırıq. Ona görə də biz Azərbaycan xalqı, Azərbaycan dövləti olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə və azərbaycanlıların tarix boyunca erməni təcavüzünə uğramasına ədalətli beynəlxalq qiymətin verilməsi üçün çalışmalıyıq. Yəni mübarizəmiz davam edir və bütün maneələrə baxmayaraq, bu gün deyə bilərik ki, biz artıq ermənilərin yüz illik təbliğatını zəiflətməyə, haqsız, ədalətsiz, saxtakarlıq üzərində qurulan siyasətini ifşa etməyə nail oluruq. Ulu öndərimiz Heydər Əliyevin başladığı və cənab Prezident İlham Əliyevin davam etdirdiyi məqsədyönlü, ardıcıl siyasət nəticəsində Azərbaycan dövləti az bir vaxtda ermənilərin anti-Azərbaycan təbliğatının zəiflədilməsinə, bəzi məqamlarda isə ifşa edilməsinə nail olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun son illər ərzində Azərbaycan həqiqətlərinin, Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü işlər, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbərliyi ilə artıq 10 ildir aparılan "Xocalıya ədalət" beynəlxalq kampaniyası nəticəsində çox ciddi uğurlar əldə olunub.

"Xocalıya ədalət" kampaniyası bu tədbirlərə daha çox insanın cəlb olunmasında və bu tədbirlərin daha geniş coğrafiyaya yayılmasında ciddi rol oynayıb. Artıq bu təbliğat kampaniyası Amerikadan Avropaya, Mərkəzi Asiya, Yaxın və Uzaq Şərq ölkələri, Avstraliya, hətta Afrikaya qədər geniş bir coğrafiyanı əhatə edir. "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu sahədə görülən işləri daha da sürətləndirib, səmərəsini artırıb. Aparılan ümumi işin nəticəsi olaraq bu gün dünyanın bir çox ölkə və təşkilatları hadisəni soyqırımı kimi tanıyıb. Meksika Senatı Xocalı faciəsini soyqırımı adlandırıb, Pakistan soyqırımı pisləyən qətnamə qəbul edib, Kolumbiya Parlamenti hadisəni soyqırımı kimi tanıyıb, Çexiya, Bosniya və Herseqovina parlamentləri Xocalı soyqırımını rəsmən tanıyıb, Peru, Honduras, Cibuti parlamenti, ABŞ-ın 21 ştatı Xocalıda qırğın törədilməsi faktının tanınması haqqında qətnamə qəbul edib. Bundan başqa, İslam Əməkdaşlıq Təşkilatı da Xocalı qətliamını soyqırımı və insanlığa qarşı cinayət kimi tanıyıb. Türkiyənin bütün ictimai təşkilatları, QHT və siyasi partiyaları, türk ictimai rəyi Xocalı faciəsini soyqırımı kimi tanıyır, hər il Türkiyə Böyük Millət Məclisində qətliamla bağlı dinləmələr keçirilir. Yəni biz ermənilərin "soyqırımına məruz qalan" deyil, soyqırımı törədən bir xalq olduğunu sübut etməkdəyik və görülən işlər onu deməyə əsas verir ki, buna nail oluruq. Görülən işlər isə deyərdim ki, Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətinin tərkib hissəsidir. Azərbaycan həqiqətlərinin, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması Diasporla İş üzrə Dövlət Komitəsinin bilavasitə əsas prioritetlərindəndir. İllərdir bu istiqamətdə məqsədyönlü və sistemli iş aparılır, Dövlət Komitəsi olaraq, nəinki Xocalı soyqırımı ərəfəsində bütün il ərzində də bu istiqamətdə xarici ölkələrdə təbliğat işləri aparır, diaspor təşkilatları tərəfindən çox maraqlı və effektiv tədbirlər həyata keçirilir. Təkcə 2017-ci ildə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması sahəsində ümumilikdə 150-dən çox tədbir keçirilib. Xüsusilə də Azərbaycan diaspor təşkilatları tərəfindən Ermənistanın, erməni diaspor və lobbi qruplarının ölkəmizlə bağlı anti-təbliğat kampaniyalarının qarşısının alınması məqsədilə il ərzində müxtəlif formatlı tədbirlər keçirilib, xarici ölkələrin kütləvi informasiya vasitələrində mütəmadi olaraq məlumatlar yayımlanıb. Azərbaycan diaspor təşkilatları tərəfindən Avropa, ABŞ, Kanada və digər ölkələrdə etiraz aksiyaları, yürüşlər, fleşmoblar təşkil olunur, ictimai nəqliyyatlarda videoçarxlar nümayiş etdirilir, fotosərgi və filmlər təqdim olunur, yerli qanunverici orqanlara müraciətlər göndərilir, dəyirmi masa, konfranslar keçirilir. Qeyd edim ki, belə tədbirlərə həmin ölkələrin hökumət və qanunverici orqanlarının, siyasi partiya və ictimai təşkilatlarının nümayəndələri də qatılır.

***- Xocalı faciəsinin dünyaya tanıdılması istiqamətində digər qurumlarla əməkdaşlıq necə qurulub?***

- Nəinki diaspor təşkilatlarımızın, eləcə də Azərbaycan Respublikasının bir sıra dövlət və qeyri-hökumət təşkilatları, diplomatik nümayəndəliklərimiz, ayrı-ayrı vətəndaşlarımızın kifayət qədər maraqlı təşəbbüsləri, layihələri olur. Təqdirəlayiq haldır ki, bütün azərbaycanlılar Xocalı soyqırımı ilə bağlı belə yüksək fəallıq nümayiş etdirirlər. Xüsusilə də xarici ölkələrdə yaşayan soydaşlarımızın, diaspor təşkilatlarımızın nümayiş etdirdiyi fəallıq, vətənpərvərlik mövqeyi təqdirəlayiqdir. İldən-ilə tədbirlərin mahiyyəti, məzmunu daha maraqlı olur və daha geniş coğrafiyanı əhatə edir. Azərbaycan Prezidentinin apardığı siyasət, müəyyən etdiyi strateji xətt bütün dünya azərbaycanlılarını vahid bir ideya ətrafında birləşdirib. Azərbaycanlıların yaşadığı və təşkilatlandığı elə bir ölkə yoxdur ki, orada Xocalı soyqırımına dair hansısa bir tədbir, layihə həyata keçirilməsin. Bu da bir daha onu göstərir ki, bütün dünya azərbaycanlıları Azərbaycan dövlətinin ətrafında sıx birləşiblər və xalqımızın tarixin müxtəlif mərhələlərində məruz qaldığı ədalətsizliklərə öz etirazlarını bildirməyi milli borc kimi qəbul edirlər. Hər il dünyanın müxtəlif ölkələrində - ABŞ, Almaniya Federativ Respublikası, Türkiyə Respublikası, İsveç Krallığı, Litva Respublikası, Ukrayna, Gürcüstan, Rusiya Federasiyası, Fransa Respublikası, Belçika Krallığı, Niderland Krallığı, Misir Ərəb Respublikası və digər ölkələrdə diaspor təşkilatlarımız tərəfindən müxtəlif məzmunlu tədbirlər, kütləvi etiraz aksiyaları, konfrans və seminarlar təşkil olunur. 2017-ci ildə Almaniyada Münhen Təhlükəsizlik Konfransın keçirildiyi "Bayerişer Hof" otelinin önündə, Nyu-Yorkda Ermənistanın BMT-dəki daimi nümayəndəliyi və BMT-nin baş qərargahı qarşısında, Amsterdamda Xocalı soyqırımı ilə bağlı etiraz aksiyası keçirilib. Bundan başqa, Azərbaycan və türk icmalarının Vaşinqtonda və onun ətrafında yaşayan üzvləri Ermənistanın Vaşinqtondakı Səfirliyi, Stokholm şəhərində yaşayan azərbaycanlı, türk və türkmən icmalarının üzvlərinin iştirakı ilə İsveç parlamentinin qarşısında, Kopenhagen şəhərində etiraz aksiyaları keçirilib.

***- Nazim müəllim, yəqin ki, faciənin 26-cı ildönümü ilə bağlı da tədbirlərin keçirilməsi nəzərdə tutulur?***

- Hər il olduğu kimi bu il də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən diaspor təşkilatları müxtəlif mitinq, yürüş və tədbirlərlə soyqırımı qurbanlarını anır, bu tədbirlər yerli ictimaiyyətin məlumatlandırılması məqsədinə xidmət edir. Bu il Xocalı soyqırımının 26-cı ildönümü ilə bağlı ən böyük tədbirlərimizdən biri Amsterdamda keçiriləcək. Avropa Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə Niderland Krallığının Amsterdam şəhərində Xocalı soyqırımına həsr olunmuş konsert-rekviem təşkil olunacaq. Belə kütləvi tədbirlər, Avropanın digər ölkələrində, Türkiyədə, ABŞ-da, Kanadada və digər ölkələrdə də keçiriləcək. Nyu-York şəhərində BMT-nin mənzil qərargahı qarşısında, Vaşinqton, Brüssel və digər şəhərlərdə Ermənistan səfirlikləri qarşısında, eləcə də Almaniyanın bir sıra şəhərlərində azərbaycanlıların etiraz aksiyaları, yürüşlər təşkil edilir və qarşıdakı günlərdə belə tədbirlər daha da intensivləşəcək. Kanadada faciənin ildönümü ilə əlaqədar keçirilən tədbirlər demək olar ki, ölkənin bir çox şəhərlərini əhatə edir. Türk və Azərbaycan diasporunun güclü olduğu Almaniyada bu il də genişmiqyaslı aksiyalar keçirilməkdədir. Berlin, Hannover, Hamburq, Frankfurt, Maqdeburq, Drezden kimi şəhərlərdə fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları fotosərgi, konfrans və etiraz aksiyaları təşkil etməklə ictimaiyyətin diqqətini bu faciəyə yönəldir. Bundan əlavə, ictimai nəqliyyat vasitələrində faciəyə həsr olunmuş videoçarx və posterlərin yayılması məlumatlandırma kampaniyasında böyük effekt verir. Belə təbliğat vasitələri hər gün nəqliyyatdan istifadə edən yüz minlərlə insanın bu çarxları görməsi ilə nəticələnir. Bununla yanaşı, yerli kanallarda Xocalı soyqırımını əks etdirən filmlərin nümayişi, rəsmi orqanlara müraciətlər də apardığımız kampaniyanın tərkib hissədir.

Qardaş Türkiyədə də Xocalı soyqırımına həsr olunmuş tədbirlər, görüşlər, aksiyalar həyata keçirilir. Bilirsiniz ki, bu işlərin səmərəliliyini və kütləviliyini artırmaq məqsədi ilə "Türkdilli ölkələrin diaspor təşkilatlarının ortaq fəaliyyət strategiyası" qəbul olunub. Xocalı faciəsinin tanıdılması istiqamətində türkdilli ölkələrin, xüsusilə də Türkiyənin diaspor təşkilatlarının böyük dəstəyi hiss edilir. Yəni artıq Azərbaycanın və dünya azərbaycanlılarının həyata keçirdiyi bütün təbliğat xarakterli tədbirlərdə, aksiyalarda Türkiyənin və digər Türkdilli ölkələrin bayraqları da görünür. Biz artıq ermənilərin formalaşdırdığı soyqırımı yalanını birgə mübarizə sayəsində müəyyən qədər ifşa edə bilmişik və ermənilərin əsl üzünün ortaya çıxmasında, onların yalan üzərində qurulmuş saxta təbliğatının puç olmasında əvvəlcə Xocalıda törədilmiş vəhşiliklərin tam olaraq dünyanın hər yerində bilinməsi gərəkdir. Dünyanın bütün xalqları təfsilatı ilə bilməlidir ki, erməni faşizmi nədir. Yəni bizim ən mühüm hədəfimiz budur və düşünürəm ki, qarşıdakı illərdə bu hədəfimizə daha da yaxınlaşacağıq.

## Vüqar Bayramov: "2018-ci ildə dövlət rezervləri artacaq"

***Azərbaycan Respublikası Dövlət Neft Fondunun və Mərkəzi Bankın mövcud ehtiyatları, pul-kredit və fiskal siyasət birmənalı şəkildə proqnozlaşdırmağa əsas verir ki, bu il dövlət rezervlərimizin artırılması baxımından əhəmiyyətli illərdən biri olacaq. Bu fikirləri açıqlamasında İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri, iqtisadçı ekspert Vüqar Bayramov bildirib.***



V.Bayramov qeyd edib ki, Azərbaycan üçün strateji valyuta ehtiyatları ciddi əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı hazırlanıb qəbul edilən zaman Azərbaycanın dövlət rezervləri cəmi 1,8 milyard dollar idi. Ötən müddətdə həmin rəqəm 42 milyard dollara qədər yüksəldi. 2017-ci ildə ölkəmizin rezervləri 5 milyard dollar artdı. Baxmayaraq ki, bazar qiyməti aşağıdı, ona rəğmən dövlət rezervlərimizdə artım baş verdi. Ötən il büdcə üzrə nəzərdə tutulan öhdəlikləri də yerinə yetirmək mümkün oldu. İqtisadiyyatdakı stabillik təmin edildi. Bu, dövlət rezervlərinin artmasında özünü göstərdi. Bu baxımdan ölkədə həyata keçirilən fiskal konsolidasiya siyasəti nəticə etibarilə dövlət rezervlərimizə, fiskal öhdəliklərimizin yerinə yetirilməsinə imkan verdi.

"2018-ci ildə dövlət rezervlərinin artırılması əsas hədəflərdən biridir. Son müşavirələrdə də dövlətimizin başçısı xarici borclanmaya gedilməməsi, eyni zamanda, vəsaitlərin qənaətlə, daha səmərəli istifadəsi ilə bağlı göstəriş verib. Bu baxımdan bu il nəzər alsaq ki, neftin bazar qiyməti büdcədə nəzərdə tutulandan daha yüksəkdir. Hər barrel üçün 45 dollar nəzərdə tutulsa da, hazırda "Azeri Light" markalı neft daha yüksək qiymətə satılır", - deyə ekspert qeyd edib.

# Milli Məclisin növbəti plenar iclasında 19 məsələyə baxılıb

Fevralın 23-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Milli Məclisin deputatı Fəttah Heydərovun ünvanına yubiley təbriki səsləndi. Milli Məclisin sədri Oqtay Əsədov bu gün Fəttah Heydərovun 80 yaşının tamam olduğunu söyləyib, bu münasibətlə Azərbaycan Prezidentinin onu "İstiqlal" ordeni ilə təltif etdiyini xatırladıb. Parlamentin rəhbərliyi də yubilyar deputatı təbrik edib. Plenar iclasda 19 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra deputatlar günün aktual məsələlərinə münasibət bildirdilər. İlk növbədə, Azərbaycan dövlətinin yürütdüyü humanist siyasətdən bəhs olundu. Komitə sədrləri Siyavuş Novruzov və Əli Hüseynli, deputatlar Fazil Mustafa və Qüdrət Həsənquliyev müsbət fikirlərini parlamentin diqqətinə çatdırdılar. Vətəndaşların yüksəkkeyfiyyətli hüquqi yardım alması üçün ölkəmizdə vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında Prezident İlham Əliyevin dünən imzaladığı Sərəncam təqdir edildi. Həmçinin cəza siyasətinin humanistləşdirilməsi haqqında Azərbaycan Prezidentinin ötən il imzaladığı Sərəncam, 1993-cü ildən bəri verilən əfv fərmanları, amnistiya aktları barədə danışıldı. 2017-ci ilin oktyabr ayında Milli Məclisdə qəbul edilmiş Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə əlavə və dəyişikliklər haqqında qanunun icrası barədə deputatlara ətraflı məlumat verildi. Vurğulandı ki, Azərbaycan hüquqi dövlətdir, burada qanunun aliliyi hər şeydən üstündür. Dövlət başçısı atdığı hüquqi addımlarla dünyaya bir daha sübut etdi ki, Azərbaycanın dövlət siyasəti ən humanist siyasətdir.

Sonra deputatlar Xocalı soyqırımının 26-cı ildönümü məsələsini gündəmə gətirdilər. Bildirildi ki, hazırda Milli Məclisin 20-dən çox deputatı dünya ictimaiyyətinə doğru-dürüst məlumatlar çatdırmaq və anım tədbirlərində iştirak etmək üçün müxtəlif ölkələrə ezam olunubdur. Millət vəkili Şahin İsmayılov erməni təbliğat maşınının fəaliyyəti və erməni dərsliklərində əksini tapan iftira və yalanlar barədə konkret faktları diqqətə çatdırdı. Niderlandda erməni soyqırımının tanınmasına etiraz edən Fərəc Quliyev Xocalı soyqırımının bu ölkədə tanıdılması üçün təklif irəli sürdü. Deputatlar Tahir Kərimli və Elman Nəsirov da qondarma "erməni soyqırımı" barədə Niderlandda qəbul edilən ədalətsiz qərara qəti etiraz bildirdilər. Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlandı. Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan Hökuməti ilə Türkiyə Hökuməti arasında müdafiə sənayesi sahəsində Sazişin təsdiq edilməsinə dair qanun layihəsini təqdim etdi. Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli Azərbaycan və Türkiyə hökumətləri arasında təhsil sahəsində əməkdaşlığa dair Sazişi şərh etdi.

Fikir mübadiləsi aparıldıqdan sonra hər iki saziş ratifikasiya olundu.

Gündəlikdəki növbəti beş qanun layihəsi barədə iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə məlumat verdi. Bildirildi ki, Milli Məclisə bir zərfdə daxil olmuş "Patent haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Dövlət rüsumu haqqında" qanunlara dəyişikliklər edilməsi zərurəti Azərbaycan Prezidentinin "Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 10 fevral 2017-ci il tarixli Fərmanından irəli gəlir. Həmin fərmana əsasən ölkəmizdə "Azərbaycan Metrologiya İnstitutu", "Azərbaycan Standartlaşdırma İnstitutu", "Azərbaycan Akkreditasiya Mərkəzi", "Patent və Əmtəə Nişanları Mərkəzi" adlı 4 publik hüquqi şəxs yaradıldığına görə adıçəkilən qanunlarda nəzərdə tutulmuş bir sıra səlahiyyətlər bundan sonra həmin qurumlar tərəfindən həyata keçiriləcək. Deputatlar qanun layihələrinin beşinə də müsbət münasibət bildirdilər.



Sonra aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov üç qanun layihəsini Milli Məclisə təqdim etdi. Məlumat verildi ki, "Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 10 fevral 2017-ci il tarixli Prezident fərmanı ilə əlaqədar olaraq "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında" və "Yeyinti məhsulları haqqında" qanunlarda dəyişikliklər edilməsi vacibliyi meydana gəlib. Belə ki, "tarladan süfrəyədək" prinsipi əsasında qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətini həyata keçirmək məqsədilə yaradılmış Qida Təhlükəsizliyi Agentliyi bu ilin əvvəlindən fəaliyyətə başlayıb. Heyvandarlıq və bitkiçilik sahələrinə nəzarət məsələsində dövlət orqanları və qurumlarının səlahiyyətlərinin təkrarlanması məqsədilə yeni qanunlarda nəzarət və xidmətlərin əhatə dairəsi dəqiqləşdirilir. Müzakirələrdən sonra Milli Məclis bu qanun layihələrinin qəbul edilməsini məqsədəuyğun saydı. İclasda "Standartlaşdırma haqqında" qanuna təklif olunan dəyişiklik səsə qoyularaq qəbul edildi. Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov məlumat verdi ki, "Sanitariya-epidemioloji salamatlıq haqqında" qanuna təklif olunan dəyişiklik də Qida Təhlükəsizliyi Agentliyinin yaradılması ilə bağlıdır. Deputatlar bu qanuna da müsbət münasibət bildirdilər.

Plenar iclasda növbəti dörd məsələni hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli şərh etdi. Milli Məclis Miqrasiya və İnzibati Xətalar məcəllələrinə, "Yol hərəkəti haqqında" Qanuna və "Azərbaycan avtomobil yolları - 100 il (1918-2018)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik edilməsinə razılıq verdi. "Dövlət rüsumu haqqında" qanunun 14.3-cü maddəsinə təklif olunan dəyişiklik də məqbul sayıldı.

Müzakirəyə çıxarılmış iki yeni qanun layihəsini deputatlara komitə sədri Ziyad Səmədzadə təqdim etdi. Əvvəlcə "Standartlaşdırma haqqında" 6 fəsil 27 maddədən ibarət qanun layihəsi barədə məlumat verildi. Bildirildi ki, sənəd "Standartlaşdırma, metrologiya, akkreditasiya və patent hüququ obyektlərinin mühafizəsi sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Prezident fərmanına əsasən hazırlanıb. Mütəxəssislərin iştirakı ilə komitədə geniş müzakirə olunub. Məlumat dinlənildikdən sonra deputatlar qanun layihəsinə dair qeydlərini bildirdilər.

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədr müavini Niyazi Rəhimov deputatların suallarını cavablandırdı. Fikir mübadiləsində "Standartlaşdırma haqqında" yeni qanun layihəsi konseptual baxımdan bəyənildi və birinci oxunuşda qəbul edildi. İclasın yekununda deputatlara 4 fəsil, 18 maddədən ibarət "Texniki tənzimləmə haqqında" qanun layihəsi təqdim olundu. Bildirildi ki, bu qanun insanların həyat və sağlamlığının, ətraf mühitin, əmlakın və dövlətin maraqlarının mühafizəsi, istehlakçıların hüquqlarının və qanuni maraqlarının müdafiəsi, ticarətdə texniki maneələrin aradan qaldırılması və malların rəqabət qabiliyyətinin artırılması məqsədi ilə mallar, onlarla əlaqəli proseslər və istehsal metodları üzrə texniki tənzimləmənin məqsəd və prinsiplərini, həmçinin tətbiqi qaydalarını müəyyən edəcək.

Deputatlar "Texniki tənzimləmə haqqında" qanun layihəsini konseptual baxımdan birinci oxunuşda qəbul etdilər. Bununla da Milli Məclisin növbəti plenar iclası başa çatdı.

## "Əfv Sərəncamı Cümhuriyyət bayramı ərəfəsində veriləcək"



"Əfv Komissiyasına müraciətlər daxil olmaqda davam edir. Əgər Novruz bayramına qədər müraciətlərə baxılma prosesi başa çatdırılacaqsa, sərəncam Novruz bayramı ərəfəsində verilə bilər. Bütövlükdə müraciətlərə baxılması davam edəcəksə, əfv sərəncamı Cümhuriyyət bayramı ərəfəsində veriləcək. Təbii ki, əfv sərəncamının verilməsi Prezidentin səlahiyyətlərinə aid olan məsələdir". SİA-nın verdiyi məlumata görə, bunu Prezident yanında Əfv Məsələləri Komissiyasının üzvü Əliməmməd Nuriyev deyib.

Onun sözlərinə görə, əsasnaməyə əsasən, müraciətlərin hər birinə baxılması, araşdırılması və müvafiq rəyin hazırlanması üçün müəyyən vaxt lazımdır: "Komissiyanın Katibliyi və Əfv sektoru fasiləsiz olaraq çalışır və müraciətləri emal edərək Komissiyaya təqdim edir. Əfv sərəncamının imzalanması cənab Prezidentin müstəsna səlahiyyətlərinə aiddirsə, amnistiya aktının qəbulu Milli Məclisin səlahiyyətinə aiddir. Əfv və amnistiya fərqli subyektlər tərəfindən qəbul olunduğundan və fərqli dairələri əhatə etdiyindən, onların eyni vaxtlarda qəbulu heç bir problem doğurmur. Amnistiya aktının qəbulu ilə bağlı Milli Məclisin deputatı Siyavuş Novruzov tərəfindən təşəbbüs irəli sürülüb. Bu baxımdan parlamentin Cümhuriyyətin 100 illiyi ilə bağlı amnistiya aktı qəbul edəcəyini istisna etmirəm. Amma bu istiqamətdə hansı işlər görüldüyünə dair məlumatsızam. Ümumilikdə amnistiya aktının və əfv sərəncamının eyni vaxtda verilməsi yolverilməndir. Çünki bunlar bir-birini tamamlayan prosedurlardır".

## Ərdoğan: "Mətbuat katibi utanmadan mülki şəxsin öldüyünü bildirir"

***"Suriya və İraqın tezliklə sabitliyə qovuşacağına ümid edirik". SİA-nın Türkiyə mətbuatına istinadən verdiyi məlumata görə, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan fevralın 23-də hakim Ədalət və İnkişaf Partiyasının əyalət sədrlərinin genişləndirilmiş toplantısında bildirib. Onun sözlərinə görə, hazırda Türkiyədə 3,5 milyon suriyalı və iraqlı qaçqın var: "Onlara yardım edəndə gördük ki, terror ölkəmizə qədər gəlib. Otuz beş gündür davam edən "Zeytun budağı" əməliyyatı zamanı terrorçular zərərsizləşdirilir, əməliyyat addım-addım irəliləyir və artıq 1000 kənd terrorçulardan təmizlənib".***



Türkiyə prezidenti ABŞ Müdafiə Nazirliyi rəsmisinin Afrinlə bağlı bəyanatına sərt reaksiya verib: "Strateji müttəfiq saydığımız bir dövlətin Müdafiə Nazirliyinin mətbuat katibi utanmadan mülki şəxsin öldüyünü bildirir. Bu utanmaz terrorçulara qarşı mübarizəyə qara yaxmaq üçün orada mülki insanların öldürüldüyünü deyir".

# Azərbaycanda əhalinin sosial rifahının gücləndirilməsi dövlət siyasətinin prioritetidir



## Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvü Sevinc Hüseynovanın yap.org.az-a müsahibəsi

***- Sevinc xanım, bu gün Azərbaycan özünün yüksək inkişaf mərhələsini yaşayır. Bu baxımdan, sosial sahədə həyata keçirilən dövlət siyasətini necə qiymətləndirirsiniz?***

- Ümumiyyətlə, ölkəmizdə bütün sahələrdə, o cümlədən, sosial sahədə uğurlu dövlət siyasəti həyata keçirilir. Məhz bu səbəbdən də reallaşdırılan siyasət, aparılan islahatlar öz müsbət nəticələrini verməkdədir. Artıq Azərbaycanın inkişaf modeli dünyanın bir sıra dövlətləri üçün nümunəyə çevrilib, həmin dövlətlər ölkəmizin təcrübəsindən yararlanmağa çalışırlar. Həqiqətən də, dövlətimizin sosial siyasəti nəticəsində əhalinin rifahı xeyli yüksəlib, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşüb. 2003-cü ildən etibarən 1,9 milyon yeni iş yeri açılıb ki, bu da işsizliyin aradan qaldırılmasında müstəsna rol oynayır. Bir sözlə, Azərbaycanda sosial dövlət quruculuğu uğurla həyata keçirilir. Xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan maksimum istifadə edilir.

Bütövlükdə, son illər ərzində çox ciddi sosial tədbirlər həyata keçirilib. Azərbaycanda sosial müdafiə sistemi yenilənib, yeni islahatlar aparılıb. Sosial sığortanın həmrəylik prinsipindən fərdi uçot prinsipinə keçilib, sosial müdafiədə ünvanlılığa üstünlük verilib, eləcə də, pensiya islahatları nəticəsində təqaüdlər xeyli artıb. Sosial müdafiəyə ayrılan dövlət büdcəsinin həcmi də artıb. Beləliklə, Azərbaycanda insanların sosial müdafiəsi hiss olunan dərəcədə güclənir. Bu da ondan irəli gəlir ki, Azərbaycanda əhalinin sosial rifahının gücləndirilməsi dövlət siyasətinin prioritetlərindən biridir.

***- Azərbaycanın inkişafında vacib rol oynayan amillərdən biri regionların sosial-iqtisadi inkişafı istiqamətində görülən işlərdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyəti nədən ibarətdir?***

- Əlbəttə ki, 2004-cü ildən bu yöndə görülən işlər nəticəsində çox mühüm nailiyyətlər əldə edilib. Ölkəmizdə inkişafa xidmət edən islahat xarakterli tədbirlər məhz bütün sahələri əhatə edir. Bu siyasət çərçivəsində regionların sosial-iqtisadi inkişafı xüsusi yerə malikdir. Ümumiyyətlə, istehsal və emal müəssisələrinin yaradılması, yerli istehsalın stimullaşdırılması, sənaye potensialının artırılması istiqamətində görülən işlər, həmçinin qarşıda duran bütün sosial proqramların və infrastruktur layihələrinin uğurla icra edilməsi, məşğulluq səviyyəsinin ardıcıl olaraq yüksəldilməsi kimi tədbirlər dayanıqlı inkişafın təmin olunması baxımından vacib əhəmiyyət daşıyır. Bütün bunların fonunda ölkə iqtisadiyyatının davamlı tərəqqisinin ən bariz təzahürlərindən biri də regionların sosial-iqtisadi inkişafıdır.

Azərbaycanda regionların tarazlı şəkildə inkişaf etdirilməsi strateji kurs kimi müəyyənləşdirilib. İndiyədək respublikamızda regionların sosial-iqtisadi inkişafına dair 2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki Dövlət Proqramı uğurla reallaşdırılıb. Əvvəlki illərdə yaradılan möhkəm baza və qazanılan təcrübə 2014-2018-ci illəri əhatə edən sayca üçüncü Dövlət Proqramının qəbul edilməsi üçün möhkəm əsas olub. Hazırda üçüncü Dövlət Proqramı da müvəffəqiyyətlə yerinə yetirilir.

Ötən il ərzində də regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzində olub. Bütövlükdə, regionların sosial-iqtisadi inkişafı ölkəmizdə yeniləşmə, davamlı inkişaf, sosial-iqtisadi tarazlıq, modern reformalar və digər sistemli hədəflərin reallaşmasında mühüm rola malikdir. Bütün bunlar isə, şübhəsiz, Azərbaycanın tərəqqisinə xidmət edir.

***- Hazırda əsas hədəflərdən biri qeyri-neft sektorunun əhəmiyyətli dərəcədə inkişafı, eləcə də, ölkəmizin ixrac potensialının artırılmasıdır. Bu yöndə görülən işləri necə dəyərləndirirsiniz?***

- Son illərdə həm regionların sosial-iqtisadi inkişafına dair müvafiq Dövlət proqramları, həm də yeni nəsil iqtisadi islahatlar çərçivəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq ölkəmizin bölgələrində ixracyönümlü məhsul istehsalına maraq əhəmiyyətli dərəcədə artıb. Hərtərəfli dövlət dəstəyindən, o cümlədən güzəştli kreditlərdən, subsidiyalardan, ixracın təşviqi mexanizmindən, daxili istehsalın dəstəklənməsindən bəhrələnən fermerlər onlara məxsus torpaq sahələrindən daha səmərəli istifadə etməyə, məhsuldarlığı artırmağa və xarici bazarlara daha böyük həcmlərdə rəqabətqabiliyyətli məhsul çıxartmağa çalışırlar.

Azərbaycanın yeni ixrac hədəfləri müəyyənləşdirilərkən ölkənin reallıqları əsas götürülüb. Bir tərəfdən respublikamızın coğrafi-iqlim xüsusiyyətləri elədir ki, burada yüksək rəqabət qabiliyyətinə malik məhsul yetişdirmək üçün hər cür imkan vardır. Digər tərəfdən, geniş ixrac bazarları ilə əhatə olunması ölkəmizin böyük üstünlüyüdür. Bu bazarlarda Azərbaycanın keyfiyyətli meyvə-tərəvəz məhsullarını yaxşı tanıyır və yüksək qiymətləndirirlər. Respublikamızın qarşıya qoyduğu məqsəd isə həm ənənəvi satış bazarlarında mövqelərini daha da möhkəmləndirməkdən, həm də yeni bazarlara çıxmaqdan ibarətdir. Son vaxtlar Azərbaycandan uzaq xarici ölkələrə göndərilən ixrac missiyaları həmin ölkələrin bazarlarını araşdırır, eyni zamanda meyvə-tərəvəz, emal sənayesi məhsullarımızı tanıdırlar. Bütövlükdə, "Made in Azerbaijan" brendinin təşviqi məqsədi ilə vacib tədbirlər həyata keçirilir. Bütün bunlar gələcəkdə ixrac imkanlarını daha da genişləndirəcək.

***- Sevinc xanım, təmsil etdiyiniz Gədəbəy rayonunun sosial-iqtisadi inkişafı haqqında nə deyə bilərsiniz?***

- Təbii ki, ölkəmizin bütün regionlarında baş verən inkişaf prosesləri Gədəbəy rayonunda da özünü aydın şəkildə göstərir. 2004-cü ildən reallaşdırılan regionların sosial-iqtisadi inkişafına dövlət proqramlarının icrası nəticəsində rayonumuzun siması əhəmiyyətli dərəcədə dəyişib. Bu dövr ərzində yeni yollar, körpülər çəkilib, məktəblər, tibb ocaqları tikilib. Eləcə də, rayonun kəndlərinin qazlaşdırılması prosesi davam etdirilir. Bu reallığı ötən ilin nəticələrində də görmək mümkündür.

Bütövlükdə, 2017-ci il Gədəbəy rayonu üçün uğurlu il olub, rayonun inkişafı, sosial infrastrukturun yaradılması ilə bağlı həyata keçirilən işlər davam edib. Ötən ilin uğurlu olmasını deməyə əsas verən ən əsas məqam Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 20 avqust tarixində rayonumuza səfər etməsidir. Bu səfər çərçivəsində cənab Prezident Heydər Əliyev Mərkəzinin, Gədəbəy şəhərinə əzəmət bəxş edən Bayraq meydanının, "Gədəbəy Mineral Suları" MMC-nin limonad istehsalı müəssisəsinin, "Azərişıq" ASC-nin 110/35/10 kv-luq Gədəbəy elektrik yarımstansiyasının və Gədəbəy şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib. Bu səfərdən sonra dövlət başçısı 22 avqust 2017-ci il tarixdə "Gədəbəy şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Bu Sərancam və o cümlədən rayonumuzun inkişafı ilə bağlı verdiyi tapşırıqlar cənab Prezidentimizin Gədəbəy rayonuna və gədəbəylilərə göstərdiyi diqqətin bariz nümunəsidir.

Onu da qeyd edim ki, Azərbaycan Kənd İnvestisiya Layihəsi-2 çərçivəsində rayonun 5 kəndində ümumi uzunluğu 37,5 km olan kəndarası yollar təmir edilib. 108 şagird yerlik Şınıx kənd tam orta məktəbi tikilərək istifadəyə verilib, Soyuqbulaq kənd orta məktəbi əsaslı təmir edilib. Köhnəkənd kəndində modul tipli məktəbin tikintisində son tamamlama işləri aparılır.

Həmçinin, rayonun Xarxar və Düzyurd kəndlərində seçicilərlə keçirilən görüşlər zamanı insanlar həmin kəndlərin yüksək keyfiyyətli rabitə xidməti və sürətli internetlə təmin olunması xahiş etmişdilər. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən qeyd olunan kəndlərdə müasir tipli EATS quraşdırılıb və əhalinin istifadəsinə verilib. Bu sahədə digər kəndlərdə də işlərin aparılması nəzərdə tutulur. Rayonun Dəyirmandağ kəndində isə seçicilərlə keçirilən görüşdə orada həkim məntəqəsi binasının olmadığı bildirilmişdi. Yaponiya hökumətinin "Ot kökləri və insan təhlükəsizliyi Qrant yardım proqramı" çərçivəsində əhalisi 3495 nəfər olan Dəyirmandağ kəndində yeddi otaqdan ibarət, müasir tələblərə cavab verən həkim məntəqəsi tikilərək əhalinin istifadəsinə verilib. Quruculuq, sosial-iqtisadi inkişaf prosesləri Gədəbəy rayonunda bu il ərzində də uğurla davam etməkdədir.

# Rusiyalı jurnalistin adı Azərbaycan XİN-in arzuolunmaz şəxslər siyahısından çıxarılıb

**Rusiya Federasiyası vətəndaşı, "Rodnik" qəzetinin jurnalisti Svetlana Sarıçeva Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək, adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş əcnəbilərin siyahısı"ndan çıxarılmasını xahiş edib.**



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubunda Svetlana Sarıçeva 2012-ci ildə Dağlıq Qarabağa səfər etdiyini bildirib və səfərinin doğuracağı nəticələr barədə məlumatlı olmadığını ifadə edib. O, bu səfərin Azərbaycan Respublikasına və xalqına qarşı heç bir halda hörmətsizlik anlamı daşımadığını vurğulayıb. Svetlana Sarıçeva Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyinə, qanunlarına hörmət etdiyini qeyd edərək, sözügedən səfərlə əlaqədar Azərbaycan hökuməti və xalqından üzr istədiyini qeyd edib.

Səfərlə əlaqədar təəssüfünü ifadə edərək, S.Sarıçeva Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərinə səfərin heç bir halda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təşviqinə xidmət etmədiyini ifadə edib. Həmçinin o, Azərbaycan hökumətinin müvafiq razılığı olmadan, gələcəkdə Azərbaycanın işğal edilmiş ərazilərinə səfər etməyəcəyini vurğulayıb. S.Sarıçeva gələcəkdə Azərbaycan təbiətinin gözəlliyindən zövq almaq məqsədilə ailəsilə birlikdə ölkəmizə səfər etməsi üçün icazə verilməsini xahiş edib. Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

# Aydın Əliyev: "Yaxşı olardı ki, Niderland Krallığı Xocalı soyqırımını tanıyardı"

*Fevralın 23-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Onno Kervers ilə görüşüb. Qonağı səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Azərbaycan ilə Niderland Krallığı arasında mövcud iqtisadi, siyasi, mədəni əlaqələrdən söhbət açıb, bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə edib.*

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafı, biznes mühiti və sahibkarlıq fəaliyyətinin yaxşılaşdırılması, beynəlxalq ticarətin asanlaşdırılması və sürətləndirilməsi, tranzit potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edən DGK sədri sözügedən sahələrdə mühüm nailiyyətlərin əldə olunduğunu diqqətə çatdırıb. Ölkə iqtisadiyyatının formalaşmasında mühüm rolu olan gömrük işinin daha səmərəli və şəffaf şəkildə qurulması istiqamətində həyata keçirilən tədbirlər barədə də məlumat verən Aydın Əliyev bu islahatların iş adamlarının çevik və səmərəli fəaliyyəti üçün mühüm imkanlar yaratdığını vurğulayıb və Azərbaycanda yaradılan münbit investisiya mühiti ilə əlaqədar niderlandlı iş adamlarının da ölkəmizə investisiya yatıracağına əminlik ifadə olunub.

Komitə sədri vurğulayıb ki, ölkələr arasında əməkdaşlığın, o cümlədən, iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsində gömrük xidmətinin də öz yeri var və gömrük sistemi bu sahədə körpü rolunu oynayır. 2002-ci ildə gömrük sahəsində iki ölkə arasında imzalanan saziş, eləcədə gömrük xidmətlərinin səmərəli fəaliyyəti əməkdaşlığın genişlənməsinə əlavə stimul verir, tərəflərin qarşılıqlı inteqrasiyasını sürətləndirir.

Eyni zamanda, Azərbaycan Gömrük Xidmətinin Ümumdünya Gömrük Təşkilatı ilə fəal əməkdaşlıq etdiyini bildirən DGK sədri Azərbaycanda ÜGT-nin üç regional strukturu - Tədris Mərkəzi, Potensialın Gücləndirilməsi üzrə Avropa Ofisi və Kinoloji Mərkəzinin yerləşdiyini, istər ÜGT-nin Tədris Mərkəzi, Potensialın Gücləndirilməsi üzrə Avropa Ofisində, istərsə də Dövlət Gömrük Komitəsinin Akademiyasında bir sıra dünya ölkələrindən, o cümlədən Niderland Krallığından ekspertlərin iştirakı ilə önəmli treninqlərin, seminarların keçirildiyini, gələcəkdə də bu ənənənin davam etdirilməsinin qarşılıqlı əməkdaşlığın inkişafına bir töhfə olacağına əminliyini ifadə edib. Aydın Əliyev Niderland parlamentinin nümayəndələr palatasının qondarma "erməni soyqırımı"nı tanıması barədə qərarından təəssüf etdiyini bildirib. "Yaxşı olardı ki, Niderland parlamenti 1992-ci ildə bəşəriyyətin ən böyük qətliamlarından biri olan Xocalı soyqırımını tanıyardı" - deyə Aydın Əliyev bildirib.



DGK sədri onu da xatırladıb ki, Azərbaycan ərazisinin bir hissəsi - Dağlıq Qarabağ bölgəsi və bölgənin inzibati sərhədlərindən kənarda yerləşən 7 rayon Ermənistan tərəfindən işğal edilib, bu da ölkə ərazisinin 20%-ni təşkil edir. "Azərbaycan tərəfi işğal altındakı ərazilərdə ermənilərin narkotik maddələrin becərilməsi və tranzitini həyata keçirməsinə dair faktlara malikdir", - deyə Aydın Əliyev dünya birliyinin bu faktlara da etinasız yanaşdığını vurğulayıb.

Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Onno Kervers respublikamızda diplomatik fəaliyyət göstərməyindən məmnunluğunu ifadə edib, təmsil etdiyi hökumətin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa çox böyük önəm verdiyini bildirib. Niderland Krallığı ilə Azərbaycanın gömrük orqanlarının gələcək əməkdaşlığından danışan səfir respublikamızda niderlandlı mütəxəssislərin iştirakı ilə treninqlərin, seminarların keçirildiyindən məlumatlı olduğunu, gələcəkdə də bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıb.

Səfir Niderland parlamentinin nümayəndələr palatasının sözügedən qərarının Niderland hökumətinin mövqeyini ifadə etmədiyini diqqətə çatdırıb. Onno Kervers Azərbaycanda fəaliyyəti dövründə bəşəriyyətin ən böyük faciələrindən biri olan Xocalı soyqırımı barəsində ətraflı məlumatlandığını qeyd edərək bildirib ki, mən də bir səfir kimi Xocalı soyqırımı ilə bağlı tədbirlərdə iştirak edərək başsağlığı diləklərimi çatdıracağam.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb, o cümlədən, gömrük sistemində informasiya-kommunikasiya texnologiyaları, kadr potensialının gücləndirilməsi, gömrük hüquqpozmalarına qarşı mübarizə və s. sahələrdə əməkdaşlıq məsələlərinə toxunulub.

# Mədəniyyət və turizm naziri Göyçayda vətəndaşların müraciətlərini dinləyib

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev fevralın 23-də Göyçay rayonundakı Heydər Əliyev Mərkəzində Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib. AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, vətəndaşlar nazirlə görüşdə müxtəlif məsələlərlə bağlı xahiş və təkliflərini səsləndiriblər. Müraciətlər əsasən yerlərdə uşaq musiqi və incəsənət məktəblərinin fəaliyyəti, tarixi və mədəniyyət abidələrinin bərpası, muzey ekspozisiyalarının tərtibatı, yerlərdə turizmin inkişafı, bölgələrdəki bəzi tarixi mədəniyyət abidələrinin turizm marşrutuna salınması, kitabxanalara yeni kitabların verilməsi, Ağdaş Tarix-Diyarşünaslıq Muzeyində təmir-bərpa işlərinin aparılması, kitabxanaların aqrar sahə, xüsusilə pambıqçılıq və baramaçılığa aid elmi nəşrlərlə təmin olunması kimi məsələləri əhatə edib. Eyni zamanda, musiqi məktəblərinin yeni musiqi alətləri ilə təminatı və infoturların təşkili, mədəniyyət işçilərinə fəxri adların verilməsi, yerlərdə yeni muzeylərin yaradılması, yeni yaradılan folklor qrupu üçün milli geyimlərin alınması, kənd kitabxanalarının kompüter və internetlə təmin edilməsi, el sənətkarlığının inkişafı, tanınmış rəssamların əsərlərinin qalereyaya verilməsi, mədəni irsin təbliği, xatirə tədbirlərinin keçirilməsi və işlə təmin olunma kimi müraciətlərə də baxılıb. Nazir Əbülfəs Qarayev qəbuldan sonra jurnalistlərə müsahibəsində Prezident İlham Əliyevin tapşırığına əsasən yerlərdə mütəmadi olaraq keçirilən görüşlərin əhəmiyyətini vurğulayıb. Bildirib ki, artıq ənənə halını alan bu qəbullar bölgələrdə sakinlərin problemləri ilə daha yaxından tanış olmağa və müvafiq tədbirlər görməyə imkan yaradır. Ə.Qarayev Göyçay rayonunda keçirilən qəbulda ölkənin mədəniyyət və turizm sahələri üçün aktual olan bir sıra məsələlərin gündəmə gətirildiyini deyib. O, əhali ilə belə görüşlərin yerlərdə vəziyyətin öyrənilməsi, mövcud problemlərin operativ həlli baxımından əhəmiyyətini yüksək qiymətləndirib.



Nazir səslənən bütün xahiş və müraciətlərin diqqətlə nəzərdən keçiriləcəyini, imkan daxilində həlli istiqamətində tədbirlər görüləcəyini bildirib. Müraciətlərdə bir sıra aktual məsələlərin, o cümlədən bölgədə turizmin inkişafı, tarixi-mədəni irsin tədqiqi və təbliği, xalq teatrının inkişafı, tarixi-mədəni abidələrin qeydiyyata alınması və turizm marşrutuna salınması ilə bağlı maraqlı təkliflərin olduğunu qeyd edən Ə.Qarayev vətəndaşların təşəbbüskarlığını müsbət qiymətləndirib, gələcəkdə bu mövzularda xüsusi müşavirələrin keçirilə biləcəyini deyib. Əbülfəs Qarayev qəbulda sosial məsələlərlə bağlı səslənən müraciətlərə də baxılacağını və aidiyyəti qurumlara çatdırılacağını bildirib.

# Məşhur bəstəkar və ifaçı Qoran Breqoviç Heydər Əliyev Mərkəzində çıxış edəcək




Mayın 3-də Heydər Əliyev Mərkəzində məşhur bəstəkar və ifaçı Qoran Breqoviçin konserti olacaq. AZƏRTAC xəbər verir ki, Qoran Breqoviç Bakıdakı ilk konsertində rəhbərlik etdiyi orkestrin müşayiəti ilə məşhur filmlərə yazdığı, eləcə də dünyada populyarlıq qazanmış mahnılarını səsləndirəcək. Gözəl musiqilər və oynaq ritmlərlə zəngin konsertin repertuarına "Kalaşnikov", "Bella Çao", "Maki Maki" kimi məşhur mahnılar daxildir. Konsertin biletləri Heydər Əliyev Mərkəzinin kassasında və rəsmi saytında (www.heydaraliyevcenter.az) satılır.

# Yanvarda avtomobil nəqliyyatı ilə 79 min tonadək yük göndərilib

2018-ci ilin yanvar ayında avtomobil nəqliyyatı ilə 78 min 777 ton yük ixrac olunub. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, bu nəqliyyat növü ilə idxal olunan yüklərin həcmi isə 152 min 765 ton təşkil edib.

# Deputat: ""Hay"lar yenə hay-həşir salıblar"

Ötən gün erməni tərəfi cəbhə bölgəsində daha bir təxribata cəhd edib və təxribatın qarşısı alınıb. Düşmən tərəfi cavab atəşi ilə susdurulub.Atışma zamanı erməni əsgər, 1998-ci il təvəllüdlü Qriqor Eqoyan ölüb. Məsələyə münasibət bildirən millət vəkili Sahib Alıyev deyib ki, haylar yenə hay-həşir salıblar: "Beynəlxalq qurumları, Minsk qrupu həmsədrlərini buna sərt və uyğun reaksiya verməyə səsləyirlər. Razıyıq. Belə bir reaksiya olmalı və Ermənistandakı hərbi xuntanın rəhbərliyinə Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəfələrlə səsləndirdiyi bu sual verilməlidir: "Əgər erməni əsgəri ölmək istəmirsə, onun Azərbaycan torpaqlarında nə işi var?".

# “92-ci ilin qarı”

***Tariximizin ən dərin qatlarını özündə yaşadan, daş yaddaşlardan gələn tarixi-mədəni irsi, əxlaqi-mənəvi dəyərləri nəsildən-nəslə ötürən kino sənəti gerçəkliklərin, yaşantılarımızın üzüdür desək, fikrimzdə yanılmarıq. Azərbaycan kinosunun xronoloji süjetləri böyük inkişaf yolu keçmiş bir xalqın tarixindən danışır, bir neçə dəqiqənin, saatın aşıladığı tarixi gerçəklik illəri, qərinəni belə bizə təqdim edir, yaddaşlara əbədi iz salır. Bu tarix hər bir azərbaycanlının əsrlərə iz salmış salnaməsidir.***








Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətini, beynəlxalq hüququn norma və prinsiplərini, insan hüquq və azadlıqlarının kütləvi şəkildə və kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımını da əks etdirən olaylar ssenariləşdirilir, yetişən nəslə, dinindən, irqindən asılı olmayaraq, bəşər insanına təqdim olunur. Belə filmlər sırasında “92-ci ilin qarı” sənədli filmini də, xüsusi olaraq, qeyd etməliyik. Film kütləvi surətdə qətlə yetirilmiş və ata-baba yurdlarından didərgin salmış Xocalı faciəsindən bəhs edir. Qəddarcasına həyata keçirilən terror əməliyyatı nəticəsində şəhid olmuş, qətlə yetirilmiş, amansız işgəncələrə məruz qalmış insanların taleyi, şəhid şəhər müəllifin yaradıcılıq təxəyyülünün məhsulu kimi təqdim olunur. Filmin ssenari müəllifi və rejissoru Gültəkin Nəriman 1992-ci il fevralın 25-dən 26-na keçən gecə törədilən Xocalı soyqırımından, qətliamdan xilas olmuş şəxslər ilə görüşərək lentə aldığı kadrları sənədlər və faktlar əsasında tamaşaçının ixtiyarına verib. Soyqırımı aktı zamanı öz torpaqlarını tərk etməyə məcbur olan Xocalı sakinlərinin bir qisminin məskunlaşdığı Goranboy rayonunun Ağca kəndində məskunlaşmış Xocalı sakinləri ilə qarlı bir gündə görüşərək acı həqiqətləri tarixim silinməz səhifəsinə sənədlər əsasında köçürür. Müəllif üçün bu kadrları lentə almaq nə qədər çətin, ağrılı olsa da, o, peşəkarcasına sənədli filmi ərsəyə gətirmişdir.

Filmdə Xocalı hadisələrinin XX əsrin ən böyük faciəsi kimi tarixə yazıldığı, faciə zamanı yüzlərlə dinc sakinin erməni silahlı qüvvələri tərəfindən vəhşicəsinə qətlə yetirildiyi, dözülməz işgəncələrə məruz qaldığı və doğma yurd-yuvalarından didərgin salındığı göstərilir. Özü də şaxtalı - qarlı bir gündə. Müəllif təbiətin bu gözəlliyini, bütün insanlar kimi, vaxtilə Xocalı sakinlərinin də hər zaman sevinclə qarşılaşdığını bildirir. Amma illərdir qar yağanda viran olmuş şəhərin acı xatirələri çözəlir. Filmdə, həmçinin, faciə şahidlərinin dəhşətli hadisələrlə bağlı sadaladıqları faktlara da yer verilib. Filmin ən dəhşətli anları o illəri dilə gətirən Xocalı sakinlərinin ifadə etdikləri yaşantılarıdır. Çox ağrılı xronikalar hadisələrin obyektiv mənzərəsini canlandırır. Filmdə erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin dəhşətlərini reallıqlarla əks etdirilir. Xocalı sakinlərindən olan Salman Abbasov, Məmləkət Abışova, Valeh Hüseynov, Şükür Bəşirov və başqalarının dilindən o günün hadisələrini eşitmək və erməni vəhşiliyi ilə bir daha tanış olmaq insanı hiddətləndirir. Filmdə “Həmin gecə çaylar al qana boyandı, qız-gəlinin ah-naləsi ərşə çəkildi. Həmin gecə insanlar xüsusi qəddarlıqla öldürüldü. Qocalar diri-diri yandırıldı. Həmin gecə bir şəhər yer üzündən silindi” - deyən müəllif ən ağır cinayətlərdən olan genosidin filmdə əksini kadrlara köçürməklə, bu hadisələrin yaddaşlarda yaşadılmasına nail olur.

Bu sənədli film xalqımızın növbəti faciəsini yaşadığı bir tarixin gerçəkliyidir. Soydaşlarımızın xüsusi amansızlıqla qətlə yetirildiyi o qış gecəsinin dəhşətli anları, hər bir azərbaycanlının qan yaddaşına elə çökmüşdür ki, bu hadisələri kiminsə unutmağa mənəvi haqqı yoxdur. Heç bir haqqı olmayan erməni dünyanın gözü qarşısında bəşəriyyət tarixində ən ağır cinayətlərdən birini - Xocalı soyqırımını törətdi.

Bu gün dünya ictimaiyyətinə Azərbaycan həqiqətləri geniş şəkildə çatdırılır. Dünya insanı Qarabağda, Xocalıda baş verən olayları layiqli və düzgün qiymətləndirir. Dinc insanları məhv edən cinayətkarlar tezliklə ədalət məhkəməsi qarşısında cavab verməli və layiqli cəzalarını almalıdırlar. “92-ci ilin qarı” filmi Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı olan Xocalı faciəsinin tariximizin ən acı səhifəsi olduğunu bir daha diqqətə çatdırır. Bu film gənclərimizin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Odur ki, Bakı şəhər İcra Hakimiyyətininin Kino Xidməti İdarəsinin təşkilatçılığı ilə film bu günə qədər bir çox hərbi hissələrdə və təhsil ocaqlarında nümayiş olunub. Gənclər tarixdən nəticə çıxarmalı və gələcəkdə bu kimi faciələrin bir daha baş verməməsi üçün daha mübariz olmalıdırlar. Xocalı faciəsinin və bütövlükdə, ermənilərin Azərbaycan xalqına qarşı apardıqları etnik təmizləmə və soyqırımı siyasətinin konkret tarixi faktlarla gənclərimizin diqqətinə çatdırılmasının böyük əhəmiyyəti var. Film tarixin - Xocalı SOYQIRIMININ silinməz bir səhifəsini əbədiləşdirib.

***Zümrüd BAYRAMOVA***

# “Azərbaycanın Ermənistandan üstünlüyü aşkar hiss olunur”

***“Ermənistan prezidenti Serj Sərkisyan general-mayor Tiqran Parvanyanı I ordu komandanlığından azad edib, Ermənistan-Rusiya qoşun birləşmələrinə komandan təyin etdi. T.Parvanyan I ordunun komandanı olmaqla yanaşı, həm də Ermənistan-Dağlıq Qarabağ birgə işğalçı qoşunlarının komandanı idi. Başqa sözlə, o Ermənistanın işğal olunmuş Dağlıq Qarabağda yerləşən hərbi hissələrinin komandanı idi”. Bunu SİA-ya açıqlamasında Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu deyib.***

Politoloqun sözlərinə görə, halhazırda Dağlıq Qarabağ ərazisində 40 min hərbçi xidmətdədir. Bunun yalnız 5-6 mini Dağlıq Qarabağın özündən olan hərbçilərdir. Qalan 35 min hərbçi Ermənistan respublikasından gəlmədir. T.Parvanyan 2017-ci ilin dekabrın əvvəlində Azərbaycanın işğal olunmuş ərazilərinə bitişik hissəsində Ermənistanın keçirdiyi birgə hərbi təlimlərə rəhbərlik etdi. Üstündən iki ay yarım keçmiş onu indiki vəzifəyə təyin etdilər. Rusiya-Ermənistan birgə qoşun birləşmələrinin əvvəlki komandanı A.Markaryan Dağlıq Qarabağda hərbi əməliyyat zamanı sərəncamında olan Ermənistan-Rusiya qoşun birləşmələrini Dağlıq Qarabağ ərazisində müharibəyə başlamaq əmri verəcəyini bildirmişdi. A.Markaryan bu zaman RF prezidenti, RF silahlı qüvvələrinin, o cümlədən Ermənistandakı hərbi birləşmələrin ali baş komandanı V.Putinin mövqeyini nəzərə almayacağını bildirdi. Görünür, bu səbəbdən onu komandanlıqdan azad etdilər.



Eyni zamanda prezident S.Sərkisyan dəqiq başa düşür ki, Azərbaycan bütün parametrlər üzrə Ermənistandan üstündür. Hərbi kontekstdə Azərbaycanın Ermənistandan üstünlüyü daha aşkar hiss olunur. Ermənistan cəmiyyəti mənəviyyatsızlıq uçurumuna yuvarlanmaq ərəfəsində ikən Azərbaycanda mənəvi baxımdan güclənmə baş verir. Qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində qoşunların dislokasiyası barədə kəşfiyyat məlumatları da S.Sərkisyanda xof yaradıb. Keçmiş baş kəşfiyyatçısı Vova Vardanov Azərbaycanın Daşkəsən-Gədəbəy və Naxçıvan istiqamətindən Ermənistana hücum edəcəyini anons edib. Onun fikrincə, Azərbaycan hərbçiləri Sevan gölündə forel balığı yemək istəyirlər. S.Sərkisyan başa düşür ki, təkbaşına Azərbaycanın öhdəsindən gələ bilməyəcək. Bu məsələdə onun müttəfiqi yoxdur. Ona görə öz xalqını aldatmaq üçün manevrlər edir. Dağlıq Qarabağda erməni qoşunlarına komandanlıq etmiş, general-mayor T.Parvanyanı Ermənistan-Rusiya birgə qoşunlarının komandanı təyin etmək belə yalan strategiyasının tərkib hissələrindən biridir. Görünür, S.Sərkisyanın bu yalanı uzun davam etməyəcək. Azərbaycan hərbçilərinin mövqe döyüşünü udması barədə erməni kəşfiyyatçılarının hay-küyü bunu deməyə əsas verir”.

# “Xocalı soyqırımı XX əsrin ən vəhşi və ən qəddar soyqırımıdır”

## *Ekspertlər Xocalı soyqırımının bəşəriyyət üçün utancverici hadisə olduğunu bildirirlər*




***1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini işğal etdilər. Köməksiz vəziyyətdə qalan dinc əhaliyə divan tutuldu. Törədilən qırğın nəticəsində 613 nəfər həlak olmuşdur, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qoca idi. 8 ailə tamamilə məhv edilmişdir. 25 uşaq hər iki valideynini itirmişdir. 130 uşaq valideynlərindən birini itirmişdir, 487 nəfər yaralanmışdır ki, onlardan 76 nəfəri uşaq idi. 1275 nəfər əsir götürülmüşdür. 150 nəfər itkin düşmüşdür. Dövlətin və əhalinin əmlakına 01.04.1992-ci il tarixinə olan qiymətlərlə 5 mlrd. rubl dəyərində ziyan vurulmuşdur. Söhbət etdiyimiz müsahiblərimiz ermənilərin 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı şəhərində törətdiyi soyqırımının insanlığa və bəşəriyyətə qarşı cinayət olduğunu bildirdilər.***

### Millət vəkili Tahir Mirkişili:

- Xocalı soyqırımı XX əsrin ən vəhşi və ən qəddar soyqırımıdır. Dinc azərbaycanlı uşaq, qadın, yaşlı insanlara qarşı bu cinayəti törədənlər, təəssüf ki, hələ də layiqli cəzalarına çatdırılmayıblar. Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması hər birimizin missiyasıdır. Bu, həm gələcəkdə bu cür faciələrin törədilməsinin qarşısının alınmasında bütün dünya üçün vacibdir. Heydər Əliyev Fondunun vitse -prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başladılan və dünyanın bir çox ölkəsində həyata keçirilən “Xocalıya ədalət” kampaniyası soyqırımı haqda həqiqətlərin yayılmasında çox böyük rolu oldu. Eyni zamanda, müxtəlif beynəlxalq təşkilatlarda təmsil olunan deputatlar tərəfindən bu məsələnin daim müzakirələrə çıxarılması çox faydalıdır. Amma dünyada ikili standartların mövcud olması ucbatından Xocalı soyqırımı, bir soyqırımı olaraq, bir çox ölkələr tərəfindən qəbul edilmişdir. Bu, onu göstərir ki, Azərbaycanın haqlı mövqeyi yaymaq və Xocalı həqiqətlərini tanıtmaq üçün durmadan çalışmaq hər birimizin missiyası olmalıdır. Cinyətkarlar cəzalarını alana qədər, bir an da olsa, səylərimizi əsirgəməməliyik.

### Azərbaycan gənc alim, aspirant və magistrlər cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov:

- Xocalıda baş verənlər, iki yüz il ərzində, azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı hadisələrinin yalnız biridir. Zaman-zaman ermənilər tərəfindən azərbaycanlılara qarşı soyqırımlar törədilib və məsələ ondadır ki, həmin faciələrin foto-video görüntüləri qalmayıb, bu faktlar unudulub, yazılmayıb və tədqiq edilməyib. Xüsusilə, nəzərə alsaq ki, Azərbaycan 70 il SSRİ imperiyasının tərkibində olarkən, bu faktları məqsədli şəkildə tədqiq etməyə imkan verilməyib. Quba məzarlığında kütləvi şəkildə insan sümüklərinin aşkarlanması faktı vaxtilə Qubada dəhşətli soyqırımı törədildiyinin təsdiqi deyilmi? Analoji vəhşiliklər neçə-neçə rayonlarımızda törədilmişdir.

Xocalı soyqırımı bəşəriyyət üçün utancverici hadisədir. Bu faciənin detalları, təfərrüatları və əldə olan bütün foto-video görüntülər, hadisənin canlı şahidləri olduğu halda, hələ də dünya dövlətlərinin və beynəlxalq təşkilatların işğalçıya münasibəti birmənalı deyil. Xocalı soyqırımının bütün dünyada tanıdılması istiqamətində ölkənin siyasi rəhbərliyi səviyyəsində ardıcıl və sistemli işlər görülüb və görülməkdədir. Xüsusilə, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci ildə başlanılmış və onun rəhbərliyi ilə uğurla həyata keçirilən “Xocalıya ədalət” beynəlxalq təbliğat-təşviqat kampaniyasının əhəmiyyətini qeyd etmək lazımdır. Artıq Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması, faciənin Azərbaycan xalqına qarşı soyqırımı aktı kimi tanınması üçün həyata keçirilən və məqsədyönlü şəkildə davam edən kampaniyanın real nəticələrindən və təsirlərindən danışmaq mümkündür. Həmçinin, Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi Xocalı soyqırımının tanınması istiqamətində, ardıcıl işlərin nəticəsidir ki, Xocalını tam səviyyədə soyqırımı faktı kimi Pakistan və Sudan dövlətləri tanıyır.

Faciəni parlament səviyyəsində soyqırımı kimi Meksika, Kolumbiya, Çexiya, Bosniya və Hersoqovina, Cibuti, Peru, Honduras, Panama, İordaniya, Rumıniya və Şotlandiya tanıyır. İndiyədək ABŞ-ın 22 ştatı Xocalını qətliam kimi tanıyan sənəd qəbul edib. Bu hadisə Azərbaycanda “Xocalı Soyqırımı” və “Xocalı faciəsi”, digər ölkələrdə isə “Xocalı qətliamı” kimi anılır.

Bu qədər əlimizdə faktlar var ikən və bunu bütün dünyaya təqdim etdiyimiz halda, Xocalıda baş verənlərə münasibətdə dünya dövlətlərinin soyuqqanlı münasibəti dünyada davam edən ikili standartların və ədalətsizliyin göstəricisidir. Bu, bir daha onu göstərir ki, məhz bu cür vəhşiliklərə şərait yaradan, beynəlxalq cinayətlərin bu gün də davam etməsinin və geniş vüsət almasının əsas günahkarlarından biri də dünyada ədalətsizliyin olması və bu ədalətsizliyin arxasında dayanan böyük dövlətlər və onların maraqlarıdır. Baxmayaraq ki, bu, çox çətindir, amma biz dövlət olaraq Xocalı faciəsinə beynəlxalq hüquqi qiymətin verilməsi istiqamətində hələ çox işlər görməliyik, faciənin soyqırımı kimi tanıdılması istiqamətində səylərimizi, mütəmadi olaraq, davam etdirməliyik. Cəmiyyətin bütün aparıcı insanlarının üzərinə də bu istiqamətdə böyük məsuliyyət düşür. Xüsusilə, mötəbər tədbirlərdə və beynəlxalq səfərlərdə hadisəni təbliğ etmək lazımdır. Fikirləşirəm ki, xarici elm adamlarını Xocalı soyqırımını tədqiq etməyə, kitablar yazmağa cəlb etmək olduqca əhəmiyyətli fəaliyyət ola bilər və bu istiqamətdə bizim səylərimiz davam edir. Qatıldığımız hər bir beynəlxalq tədbirdə bu istiqamətdə təbliğat işimizi qurmalıyıq və fikrimcə, bu, olduqca faydalıdır. Yəni Xocalı və digər həqiqətlərimizin təbliği, yayılması hamımızın vətəndaş borcu olmalıdır. Bunun üçün haradansa xüsusi tapşırıqların, göstərişlərin və təlimatların verilməsi lazım deyildir.

### Qaçqın və Məcburi Köçkün Gənclər Təşkilatının sədri Vüqar Qədirov:

- Xocalı soyqırımının 26-cı ildönümündür. Soyqırımlara ikili standartlarla yanaşan bir çox beynəlxalq təşkilatların diqqətsizliyi nəticəsində, Xocalı soyqırımına, vəhşiliyə hələ də bəzi ölkələrin parlamentləri hüquqi-siyasi qiymət verməyiblər. Bu terrora və separatizmə münasibətdə laqeydlikdir və erməni vəhşiliyinə ikili yanaşmadır. Bu, həm də, o deməkdir ki, həmin beynəlxalq təşkilatlar və dövlətlər Xocalı qətliamının ağrlığını dərk etmirlər, həyatlarında və ölkələrində o məqamları yaşamayıblar. Xocalı soyqırımının günahkarları, təşkilatçıları və icraçıları mütləq layiqli cəzalarını almalıdırlar. Terrorçular cəzasız qaldıqca İŞİD, ASALA və PKK kimi yetişir. Əminəm ki, çox keçməz Azərbaycan Ordusu Ali Baş Komandanın əmrinə əsasən, işğal olunan torpaqlarımızı, o cümlədən, Xocalı şəhərini işğalçılardan azad edər. O zaman Xocalını qan gölünə çevirənlər və onların təşkilatçıları tapılaraq layiqli cəzalarını alarlar.

***GÜLYANƏ***

## Qəbələdə prezident seçkilərinə hazırlıq işləri davam edir



YAP Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsi aprelin 11-nə təyin edilən prezident seçkilərində vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması və seçkilərin şəffaf və demokratik ke-



çirilməsi məqsədilə ardıcıl olaraq, partiya fəalları ilə bu istiqamətdə işləri davam etdirir. 23 fevral tarixində YAP Mərkəzi Seçki Qərargahının Qəbələ rayon şöbəsinin fəalları ilə birgə qarşıdan gələn seçkilərə hazırlıqla bağlı növbəti treninqi keçirilib. Keçirilən treninqlərdə 116 saylı Qəbələ və 117 saylı Oğuz-Qəbələ Dairə Seçki Komissiyalarının ərazilərində seçicilərlə iş aparan fəallara maarifləndirici tapşırıqlar verildi, məntəqələrin ərazilərində görüləcək işlərdən danışılıb və onları maraqlandıran suallar cavablandırılıb.

## Xaçmazda Xocalı soyqırımının 26-cı ildönümü qeyd olunub



Dünən YAP Xaçmaz rayon təşkilatının gənclər birliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Xocalı Soyqırımının 26-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.

Tədbiri YAP Xaçmaz rayon təşkilatının idarə heyətinin üzvü, Heydər Əliyev Mərkəzinin direktoru Könül Əsgərova açaraq, tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqının növbəti dəfə belə faciə ilə 1992-ci ilin qışında Xocalıda üzləşdiyini bildirib. XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımının bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri olduğunu qeyd edən K.Əsgərova onu da bildirib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımı özünün əsl siyasi-hüquqi qiymətini alıb, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülüb.

Tədbirdə Xaçmaz regional mədəniyyət və turizm idarəsinin məsul işçisi Xalidə Əliyeva çıxış edərək, XX əsrin ən dəhşətli faciəsi olan Xocalı Soyqırımı və onun başvermə səbəbləri, şəhərin işğalı zamanı dinc əhaliyə qarşı törədilmiş genişmiqyaslı qanlı hərbi cinayət barədə məlumat verib. Tarix boyu ermənilər xalqımıza qarşı düşmənçilik mövqeyi tutub, ayrı-ayrı dövrlərdə beynəlxalq hüquq normalarına zidd müxtəlif təxribat və qırğınlar törədiblər. Bu gün Azərbaycan dövləti Xocalı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırır: “Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə təsis edilmiş “Xocalıya ədalət!” beynəlxalq kampaniyasının uğurla həyata keçirilməsi nəticəsində, artıq bir sıra dövlətlərin parlamentləri Xocalıda törədilən qırğını soyqırımı kimi tanıyıblar.

Sonra Xaçmaz şəhər 2 nömrəli körpələr evi və uşaq bağçasının körpə fidanlarının və gənclərin ifasında ədəbi-bədii kompozisiya təqdim olunub. Tədbirdə Xocalı Soyqırımına həsr olunmuş kitabların və Xocalı haqqında qəzet və jurnalların sərgisi təşkil edilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Əli Kərimli demokratiyadan sui-istifadə edir

***Hər hansı siyasi müxalifət partiyası sədrinin mövqeyini tamamilə itirməsi ağlını da itirməsi anlamına gəlməməlidir. AXCP sədrinin davranışlarında və nitqində biz bunun əksini müşahidə edirik. Sosial şəbəkələrin dırnaqarası qəhrəmanına çevrilən partiya sədrinin anormal müraciətləri, məntiqsiz təhlilləri, arqumentsiz və əsassız ittihamları onun ağıl və kamal sahibi olmasına şübhə oyadır.***



Qondarma "Milli Şura"sını, sözün həqiqi mənasında, barmağına dolayan bu manipulyator indi də sosial şəbəkə izləyicilərini öz təsiri altına almaq fikrinə düşüb. Daha doğrusu, özü ilə eyni ağılda olan tərəfdarları arasında çaşqınlıq yaratmaq niyyətindədir. Ardıcıl olaraq, bir-birini təkzib edən fikirləri ilə Ə.Kərimli yalnız öz səviyyəsində olan kontingenti aldada bilər. Maraqlıdır, aforizmdə deyildiyi kimi, görəsən, bu ağılda neçə nəfərdilər? Çox olsa, aksiyalarda iştirak edən beş-on nəfər olar.

### AXCP sədrinin davranışları mövqesizlikdən başqa, həm də kəm ağılın təzahürüdür

AXCP sədrinin nitqində bəzən hakimiyyətə ünvanlanmış tövsiyələrə də rast gəlmək olur. Əcəba, bu qədər mənfi münasibət sərgiləyən, qərəzli mövqedə dayanan, arqumentsiz ittihamların, hakimiyyət əleyhinə dezinformasiyaların müəllifi olan bu dırnaqarası "demokrat" nə vaxtdan tövsiyə verən olub? Sizlərin işi-gücü, bir sözlə, missiyası haqsız və əsassız yerə hakimiyyətə qarşı nifrət hissi aşılamaq deyilmi? Bir qrupunuz burda, Azərbaycanda, bir qrupunuz da ölkə hüdudlarından kənarda daha hansı əməllərə qol qoymadınız? Burdakı şeytan xislətliləriniz mitinqlərdə Azərbaycan Ordusunu, sizlərin də namusunun keşiyində dayanan Azərbaycan əsgərini, onun gücünü, ölkənin hərbi qüdrətini aşağılamağa yönələn nitqinizlə düşmən dəyirmanına su tökmədinizmi? Ermənini ruhlandıran dezinformasiyalarınızla, ordumuzu zəif xarakterizə edən şüarlarınızla və düşməni hücuma təhrik edən mesajlarınızla daha hansı xəyanətə imza atmadınız? Azərbaycan Ordusunu həm də əsassız olaraq zəif, cılız təqdim edən şüarlarınız, nitqiniz bu əsgərlərin sırasından olan və vətən uğrunda ən uca zirvəyə ucalan şəhid ruhuna hörmətsizlik, nəticə etibarı ilə xainlik deyilmi? Bu, sizin ölkə daxilində utanmadan "ifadə azadlığı hüquqlarımız pozulur" deyən ağzıgöyçəklərinizin mahiyyəti və sizin ölkə daxilindəki xain simanızdır.

Qaldı, iblislə də əməkdaşlıq etməkdən çəkinməyən Kərimlinin ölkə hüdudlarından kənardakı xəyanətkar buyruqçuları da heç tövsiyə etmək marağında deyillər və nəinki tənqid, birbaşa təhqir etmək arzusu ilə alışıb-yanan bu ünsürlər, bütün gücləri ni səfərbər edərək, elə təhqir üzərində də kökləniblər. Azərbaycan bayrağının, ölkə rəhbərinin şəklini qeyri-münasib yerə yapışdırmaqla, şərəfsizliyin ən alçaq məqamına sahib olduqlarını təsdiq edirlər. Hərçənd, AXCP sədrinin Məhəmməd Mirzəli kimi dostu, mühacir buyruqçusu şərəfsizliyi özü üçün təhqir hesab etmir və bunu özünə rəva bilir, amma cəmiyyət bu şərəfsizliyə imza atanlara elə haqlı olaraq, şərəfsiz damğası vurur. Əgər Mirzəlinin timsalında hansısa xəyanətkar bunu özünə təhqir yox, tərif hesab edirsə, buyursun, şərəfsiz adı onun halal xoşu olsun.

Göründüyü kimi, iblislə əməkdaşlığa hazır olan "Yurd" sədri şeytanlarını həm ölkə daxilinə, həm də ölkədən kənar hər tərəfə yayıb və məqsədi də hər vəchlə nüfuza xələl gətirməkdirsə, öncədən qeyd etdiyimiz bu tövsiyə xarakterli nitqlərini necə başa düşək? Bu mövqesizlikdən də başqa, birbaşa kəm ağıllığın təzahürüdür ki, sosial şəbəkələrdə inikas edir. Yaxşı, bu ağılla, bu təfəkkürlə sənət adamlarına, incəsənət xadimlərinə, yaradıcı insanlara bir adamın irad bildirməsinə, hətta ittihamlar yağdırmasına nə ad verməli olar? Bunun yalnız bir adı var, arsızlıq. Hansı əsasla bu adam insanları mühakimə edir və buna nə dərəcədə haqqı var? Təbii ki, onun belə bir haqqı yoxdur və əslində, həmin adamların barələrində səsləndirdiyi fikirlərə görə onun özünü ittiham etməyə və hətta mühakimə etməyə belə haqqı çatır.

### Dağıdıcı müxalif başbilənlərinin fəaliyyətini xalq nifrətlə xatırlayır

Hökumət əleyhinə radikalların başbiləni əsassız ittihamlarla çıxış edir və sosial şəbəkələrdə bu ittihamları səsləndirir. Sanki bu xalq, Azərbaycan ictimaiyyəti onun simasını, kimliyini tanımır, fəaliyyətindən xəbərsizdir, ötən əsrin 90-cı illərindəki qısa müddətlik qarışıqlığa səbəb olan idarəçiliyini də xatırlamır. Radikalların başbilənlərinin fəaliyyətini xalq unutmayıb və nifrətlə xatırlayır. Axı nəinki tək onun özünün, bütövlükdə, müxalifət düşərgəsinin qısa müddətlik hakimiyyətdə olduğu dövrdə itkilər, acınacaqlı yaşayış mühiti, kasıbçılıq, az qala, hətta vətəndaş qarşıdurmalarına səbəb olan daxili caxnaşmalar, idarəsizlik və sair bu kimi hallar vətəndaşların yaxşı yadındadır. Dövlət katibi olduğu dövrdə hansı uğura imza atıb, Ə.Kərimli? Nə ilə yadda qalıb? Yoxsa onunla eyni əqidəyə malik olan və eyni vaxtda Milli Məclisin sədri olan İsa Qəmbərin fəaliyyəti barədə bu xalq xəbərsizdirmi? Prezident qərar verməli olduğu halda, 8 nəfərin güllələnməsinə imza atan, Kərimlinin məsləkdaşı İ.Qəmbər deyildimi və indi bu insanlar hansı üzlə haqq və hüquqların pozulmasından dəm vurur? Həmin dövrdə, güllələnmənin ləğv olunması müzakirə mövzusu olduğu vaxt eks-spiker bu qədər insanın taleyinə laqeyd münasibət göstərdi və acımadan ölüm fərmanına imza atdı. İndi bu dırnaqarası demokratlar, güya ki, insanların hüquqlarını müdafiə edənlər hansı hüquq məhrumiyyətini yaşamaq hüququndan məhrum etmədən daha ağır hesab edə bilərlər?

Azərbaycanda sosial siyasətə, sosial duruma ağız büzən Kərimli, Dövlət Katibi olduğu vaxt, Pənah Hüseynlə birlikdə Türkiyədən qida məhsulları əvəzinə, vətəndaşların itifadəsi məqsədilə heyvandarlıq üçün nəzərdə tutulmuş yem tədarük edirdilər. Çox uzun müddət ərzində də yox, hətta son günlər Prezident İlham Əliyevin əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə verdiyi qərarlar, aztəminatlı ailələrə yardımların göstərilməsi, şəhid ailələrinə, Qarabağ əlillərinə güzəştlərin edilməsi və sair sosialyönümlü tədbirləri Ə.Kərimlinin öz siyasi fəaliyyəti dövründə, nəinki gördüyü işlərdən, hətta bütün ömrü boyu etmək istədiyindən, planlaşdırdıqlarından yüz dəfələrlə çoxdur. Cənab Prezidentin gördüyü işləri, bütövlükdə, müxalifət düşərgəsi nümayəndələrinin hər birinin ayrı-ayrılıqda da yox, hamısının birlikdə gördükləri ilə müqayisə belə etmək olmaz. Hətta bu müqayisə də onlar üçün böyük şərəfət olardı və ictimaiyyətin belə bir müqayisə etmək niyyəti belə yoxdur. Cəmiyyət hər zaman layiqli olanlara öz dəstəyini əsirgəmir və bu baxımdan, Prezident İlham Əliyevin ictimai dəstəyini təkzib etmək qeyri-mümkündür. Lakin bunu təkzib etməyə cəhd edənlər daim qınaq obyekti olmaqla yanaşı, müxalifət düşərgəsinin timsalında hər zaman bu dəstəkdən məhrum olublar. Kərimli kimi xəyanət yolu tutan ünsürlərin ictimai dəstəyə - xalqın dəstəyinə zərrə qədər haqqı olmadığı kimi, gümanı da yoxdur və bu dəstəkdən məhrumdurlar.

***İnam HACIYEV***



**AFƏT**

## Xocalıda göz yaşları cücərir - çiçək yerinə

Səni də sevmədim, fevral ayı, özü də heç sevmədim. Səni də yazdım sevmədiyim ayların sırasına. Sən də sevmədiklərimdən biri oldun. Üzümü güldürmədin, özü də heç güldürmədin. Deyirlər e, üzündə güllər açıb, amma mənim üzümdə güllər əvəzinə, göz yaşları cücərtdin. Təqvimdəki aylara səslənirəm, sizinləyəm, hərəniz bir dərdlə gəldiniz gələndə, heç nə vermədiniz bizə. Aldıqlarınız yaman oldu, aldınız ala bildiyiniz qədər. Nə ölçüyə gəldi, nə də çəkiyə. Aldıqlarınızı saysam...

Qışda doğulduğuma görə qışı çox sevirdim, amma sevmirəm indi, səbəbi isə... Səbəbini desəm, dağ dağlığıyla götürməz, amma nə gücün sahibiyiksə, biz götürmüşük. Günlər həftələri, həftələr ayları, aylar illəri əvəz etdikcə, dönüb bir anlıq arxaya baxanda, nələri itirdiyimizi anlayırıq. Görəsən, itirməyə məhkumuqmu? Taleyimizlə oynaya-oynaya nələri itirdiyimizin fərqinə varmırıq belə. Deyirlər, torpağın üzü soyuq olur, həqiqətən də, beləymiş. İtirə-itirə getdikcə, unutqan oluruqmuş, özü də necə. Dəhşətə bax ki, itirdiklərimizi unutmamaqçün aylarda ayrıca bir günlə qeyd edirik, bu da - 26 fevral Xocalı soyqırımı. İtirdiklərimizin günahkarı elə özümüzük. Görünən odur ki, təkcə insan və torpaq itkisi ilə kifayətlənmirik. Qətrə-qətrə, qarışqarış, hissə-hissə, parça-parça itirmişik. Torpaq itirmək qorxusu dərdlərin ən böyüyüdür. Bu dərd haqq dünyasına köçəndən sonra da bizi izləyəcək, göynədəcək, sızladacaq. İtirdiklərimiz bir və ya bir neçə nəfər olsa da, axtaranların dərdi min oldu. Gözü yolda olanlar uçan quşdan belə xəbər gözləyirlər. Elə bu gün də gözləyirlər...

Biz gözləyirik, dərdimizi cücərdə-cücərdə...

***Aşıq, ağıllı anam,***
***Dili nağıllı anam.***
***Ay boğçası şirinli,***
***Şəkər, noğullu anam.***

***Əzizim, ellər ağlar,***
***Çiçəklər, güllər ağlar.***
***Nakam bir ömür üçün,***
***Ağaran tellər ağlar.***

# "Əli Kərimli, gəl sənə sübut edim ki, sən siyasətçi deyilsən"

***"Ümumiyyətlə, boykot müxalifətin taleyi və həyatıdır. Onlar tək seçkini boykot etmirlər, həmçinin silahdaşlarını, dostlarını vaxtilə liderlərini də boykot ediblər. Yəni bu xislətdən doğan bir prosedurdur". Bunu SİA-ya açıqlamasında millət vəkili Elşən Musayev deyib. Deputatın sözlərinə görə, seçki dövründə də bunlar bir çox vaxtlarda həmin addımı atıblar:***

"Ən əsası odur ki, həmin addımın heç bir effekti olmayıb. İndi də bəyanat verirlər ki, kütləvi mitinq keçirsinlər. Əgər sənin gücün varsa, onu tək seçki dövründə deyil, hər an etmək olar. Bunların cəsarəti yoxdur. Onlar sadəcə olaraq xaricə mesaj verirlər ki, biz seçkiyə qatılmırıq. Onların budəfəki boykot qərarı seçkiyə, iqtidara, hakimiyyətə yönəlik bir mesaj deyil. Bu ermənİ lobbisinə və onun əlinin altında olan insanlara yönəlik bir mesajdır. Bunların başında gedən Əli Kərimliyə deyirəm ki, gəl sənin səhifəndə, "Meydan TV"də, "Azadlıq radiosu"nda, "Azadlıq" qəzetində görüşək. Sən az boş-boşuna danış və yalan pafos burax. İnsanları lənətləmə və hədələmə. Biz də iqtidar nümayəndəsiyik və iqtidarı sevən insanlarıq. Gəl mən sənə sübut edim ki, sən siyasətçi deyilsən. Sənin qərarlarının hamısı boğazdan yuxarı qərarlardır. Görürsünüz ki, bunlar ancaq öz başdanxarab dəstəkçiləri ilə, ipəsapa yatmayan, ümumiyyətlə isə həyatdan, dövlətçilikdən xəbəri olmayan 5-10 nəfər qohum-əqrəbadan ibarətdir. "Meydan TV"-yə baxıram və görürəm ki, onlar ağıllarına gələni danışırlar. Bu gün sosial şəbəkədə Orduxan Teymurxanın ermənilərə dəstəyi nitqi yayılıb. Guya ermənilər bizim qəbirlərimizi dağıtmayıblar. Axı bunu bir azərbaycanlı necə deyə bilər? Bu insanın başqa bir tayı da elə həmin o Emin Millidir. Emin Hüseynovdur, Həbib Müntəzirdir. Bu şəxslər ermənilərə tam dəstək verirlər. Bu insanların himayəçiləri Əli Kərimli və Milli Şuradır".



# Azərbaycanda dini tolerantlıq milli kimliyin ayrılmaz hissəsidir

## *Dini tolerantlıq mühitinin formalaşması və inkişafı Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır*

***Birmənalı tərzdə demək olar ki, ölkəmizdə aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində əksər ölkələr üçün örnək olan milli və dini tolerantlıq mühiti yaradılıb. Artıq çağdaş Azərbaycan multikulturalizm məkanı kimi mədəniyyətlərin, dinlərin müxtəlifliyini yaşadan və inkişaf etdirən unikal ölkəyə çevrilib. Ölkəmiz o demokratik-hüquqi dövlətlərdəndir ki, insan hüquq və azadlıqlarının müdafiəsi fonunda dövlət, milli mənsubiyyətindən asılı olamayaraq, hər kəsə bərabərhüquqlu yanaşma nümayiş etdirir. Bu əsas qanunumuz olan konstitusiyamızda da öz əksini tapıb. Azərbaycan Respublikasının Konstitusiyasının 25-ci maddəsində qeyd edilir ki, “dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır”.***

Azərbaycanda əhalinin 96%-i müsəlmandır. Ölkəmizdə xristianlıq və iudaizm dinləri də mövcuddur. Xristianların əksəriyyəti rus pravoslav və gürcü pravoslav kilsəsinə məxsusdur. Yəhudilərin çoxu dağ yəhudiləri və əşkinazi yəhudiləridir. Müstəqillik dövründə Azərbaycanda 2 minə yaxın məscid tikilib, son 13 il ərzində 90 məscid əsaslı təmir edilib. Ölkədə rəsmi şəkildə 525 islam, 34 qeyri-islam təmayüllü dini icma, eyni zamanda, 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir. Avropanın ən iri sinaqoqlarından biri 2003-cü ilin mart ayında, məhz Bakı şəhərində açılıb. Bütün bunlar isə bir daha Azərbaycanda dinlərin bərabər yaşaması üçün bütün imkanların yaradıldığından xəbər verir.

### Dini tolerantlıq mühitinin formalaşması və inkişafı Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır

Ölkəmizdə din dövlətdən ayrı olsa da, hökumət məscidlərin, dini ocaqların tikilməsinə, təmir və bərpa olunmasına hər zaman xüsusi diqqət göstərib. 2001-ci ildə Ulu Öndərimiz Heydər Əliyevin imzaladığı Fərmanla Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu istiqamətdə çevik idarəetmə sisteminin qurulmasına imkanlar yaratmış oldu. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əsas vəzifəsi Azərbaycan Konstitusiyasının 48-ci maddəsinin tələbinə uyğun olaraq, dini etiqad azadlığı ilə bağlı olan digər qanunvericilik aktlarına riayət olunmasına nəzarəti təmin etməkdən və dini qurumlarla dövlət arasında münasibətləri daha ciddi tənzimləməkdən ibarətdir.

Söz yox ki, ölkəmizdə dini tolerantlıq mühitinin formalaşması və inkişafı Ulu Öndərimiz Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra mütərəqqi xarakter almağa başlamışdır. Məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində xalqın keçmişinə, milli adət-ənənələrinə və dininə dövlət səviyyəsində qayğı göstərildi. Dövlət-din münasibətləri beynəlxalq hüquq normaları müstəvisində tənzimləndi, xalqımız öz milli, dini bayramlarını azad və sərbəst şəkildə qeyd etmək hüququ qazandı. Uzun illər baxımsız qaldığına görə dağılmış ibadət ocaqları yenidən bərpa edilib, xalqın istifadəsinə verildi. Ulu Öndərimiz tarixi çıxışlarının birində demişdir: “Ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq, eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq, bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik”.



Ölkəmizdəki mövcud multikulturalizmi qiymətləndirən Moskva və bütün Rusiyanın patriarxı II Aleksi hələ 2001-ci ildə Bakıda Ulu Öndərimiz Heydər Əliyevə müqəddəs “Moskva Knyazı Daniel” ordenini təqdim edərkən demişdi: “Ölkənizdəki tolerantlıq və dini dözümlülük başqa dövlətlər üçün nümunədir”.

Roma Papası mərhum II İohann Pavelin əhalisinin cəmi 0,5 faizini katoliklərin təşkil etdiyi Azərbaycana səfər etməsi isə azsaylı millət və onların etiqad etdiyi dinlərə də sayğının və xoş münasibətin dönməzliyindən xəbər verir. Azərbaycandakı nümunəvi dini tolerantlığa heyranlığını gizlətməyən İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman isə Bakının İslam Mədəniyyətinin Paytaxtı elan olunması ilə əlaqədar demişdir: “İSESCO bütün dünyaya çatdırmalıdır ki, siz necə də qədim və zəngin mədəniyyətə sahibsiniz. Ölkənizlə əməkdaşlıq sahəsində imzalanan sənədlərin həyata keçirilməsi üçün biz öz tərəfimizdən hər tələbi yerinə yetirəcəyik və bu əməkdaşlıq digər üzv dövlətlər üçün nümunə olacaqdır”.

“İslam sivilizasiyası Qafqazda” mövzusunda Beynəlxalq Simpoziumda Ulu Öndərimiz Heydər Əliyev demişdir: “Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq islam dəyərlərinin xüsusiyyətidir. Bu, tarix boyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda islam dini ilə yanaşı, xristian dini də, yəhudi dini də əsrlər boyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar”.

### Din-dövlət münasibətlərinin inkişafında yeni mərhələ yarandı

Azərbaycanda milli kimliyin ayrılmaz hissəsi olan dini tolerantlıq 2003-cü ildə Ulu Öndərimizin ən layiqli siyasi varisi Cənab İlham Əliyevin Prezident seçilməsindən sonra yeni dövrün yeni tələblərinə uyğun davam etdirildi. 2003-cü ilin aprelində Azərbaycanda rəsmi səfərdə olmuş Rum patriarxı I Varfolomey ölkəmizdəki mövcud dini durumu, dövlətin dini konfessiyalara göstərdiyi qayğını yüksək qiymətləndirərək, demişdir: “Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir”.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı din-dövlət münasibətləri barədə, danışarkən, bildirmişdir ki, Azərbaycan üzərinə düşən mənəvi borcu layiqincə yerinə yetirməyə çalışır: “Əgər müstəqilliyinin ilk dövrlərində Azərbaycan dünyada gedən dinlər və mədəniyyətlərarası dialoq prosesinin aktiv iştirakçısı idisə, indi demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilib. Azərbaycan beynəlxalq miqyasda dinlərarası dialoq mərkəzinə çevrilməkdədir. Bunun təsdiqi olaraq, son illərdə Dünya Dini Liderləri Sammitinin, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanları Məşvərət Şurasının, Qafqaz Xalqları Ali Dini Şurasının toplantılarının Bakıda keçirilməsini qeyd etmək olar. Bundan başqa, Bakı 2009-cu ildə İslam Mədəniyyəti Paytaxtı elan edilmişdi. İSESKO tərəfindən 2018-ci il üçün “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı” elan edilib. Gəncə və Şəki də “İslam Mədəniyyətinin Paytaxtları” layihəsində iştirak edəcək. Bütün bunlar dünyanın ölkəmizə tolerantlığın yüksək səviyyədə inkişaf etdiyi məkan kimi etimad göstərməsinin nəticəsidir”.

Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində, Azərbaycan müsəlman ölkələri ilə geniş əməkdaşlıq əlaqələri quran ən fəal dövlətlərdəndir. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumu ilə birlikdə 19-21 dekabr 2012-ci ildə “Dövlət və Din: Dəyişən dünyada tolerantlığın gücləndirilməsi” I Beynəlxalq Bakı Forumu keçirdi. Dövlət başçısı İlham Əliyevin 2016-cı ili “Multikulturalizm İli” elan etməsi, ”2017-ci ilin Azərbaycan Respublikasında “İslam Həmrəyliyi İli” elan edilməsi haqqında” Sərəncam imzalaması islam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədinə xidmət edir.

IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin islam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır. YAP İcra katibinin müavini, Milli Məclisin İctimai Birliklər və Dini Qurumlar Komitəsinin sədri Siyavuş Novruzov Prezident İlham Əliyev tərəfindən yürüdülən siyasətin xalqın milli-mənəvi dəyərlərinin tərkib hissəsi olan dinimizə dövlət qayğısının bariz nümunəsi olduğunu bildirib: “Mlli-mənəvi dəyərlərimizin qorunub-saxlanılması və inkişaf etdirilməsi məqsədilə yeni ibadət ocaqlarının inşası, təmirə ehtiyacı olanların yenidən bərpası istiqamətində çoxsaylı işlər görülüb. Əgər Sovet İttifaqı dağılarkən ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdisə, bu gün onların sayı 2000-i ötüb. Təkcə son 13 il ərzində ölkədə 200-dan çox məscid inşa olunub, 80-dən artıq məsciddə əsaslı təmir və yenidənqurma işləri aparılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına və tapşırıqlarına uyğun olaraq, Bibiheybət məscid-ziyarətgah kompleksində, Təzəpir məscidində, İçərişəhər Cümə və Həzrət Məhəmməd məscidlərində, Əjdərbəy, Şamaxı və Sumqayıt Cümə məscidlərində, Gəncə şəhər İmamzadə ziyarətgahında əsaslı təmir, bərpa və yenidənqurma işləri aparılıb. Dövlət başçısının tapşırığı ilə Binəqədi rayonunda inşa edilən və Cənubi Qafqazın ən möhtəşəm islam abidəsinin - Heydər Məscidinin 2014-cü ilin dekabrın 26-da açılışı olub”.

Xalqımızın milli-mənəvi dəyərlərinə böyük həssaslıqla yanaşan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyevanın dini dəyərlərimizə göstərdiyi diqqət və qayğı da xüsusi vurğulanmalıdır. Mehriban xanım Əliyeva hər zaman Azərbaycan həqiqətlərini beynəlxalq tədbirlərdə ən yüksək tribunalardan xarici ölkə nümayəndələrinin diqqətinə çatdırıb. Bununla yanaşı, Mehriban xanım Əliyeva bir sıra xarici ölkələrdə keçirilən hümanitar layihələrin təşkilatçısı və iştirakçılarından olub. Dəfələrlə Mehriban xanım Əliyeva islam ölkələrində təbii fəlakət nəticəsində zərər görən dini ocaqların, məscidlərin bərpa və təmirinə yardımlar göstərib, öz xeyirxahlıq missiyasını nümayiş etdirib. Bu baxımdan, birmənalı şəkildə demək olar ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun və ISESCO-nun Xoşməramlı Səfiri Mehriban xanım Əliyeva humanizm dəyərlərimizin hamisidir.

***Sədaqət BAYRAMOVA***

*Yazı Azərbaycan Respublikasının Prezidenti yanında KİB-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün*

# Müsavatdan sonra KXCP-də də gərginlik yaranıb

## *Mirmahmud Mirəlioğlu Oqtay Gülalıyevə "rədd ol" deyib*



***Son vaxtlar ənənəvi müxalifət cinahında baş verən istefalar, eləcə də, sədr-müavin savaşları yüksələn xətlə inkişaf etməkdədir. Belə ki, Müsavat partiyasında Tofiq Yaqublu məsələsinin ardınca, KXCP sıralarında da bənzər olay yaşanıb. Daha dəqiq desək, T.Yaqublunun başqan müavinliyi və divan üzvlüyündən çıxarılmasının səbəbi, onun AXCP sədri Əli Kərimlinin nəzarətində olan "Milli Şura"da təmsil olunması idi.***

Məsələ ondadır ki, "klassiklərin" sədri Mirmahmud Mirəlioğlu da son zamanlaradək "Milli Şura"nın üzvü, həm də müavini olmuş Oqtay Gülalıyevi həmin postdan uzaqlaşdırıb, bunun ardınca isə partiyanın ali məclis üzvlüyündən də xaric edib. Məhz o da O.Gülalıyevin "Milli Şura"da təmsil olunmasını əsas səbəb olaraq göstərib. Bundan sonra tərəflər arasında gərginlik pik həddə çatıb.

### Mirmahmud Mirəlioğlu bu məsələnin altından Oqtay Gülalıyevin çıxdığını öyrənib

O.Gülalıyev özünün "facebook" səhifəsində ali məclis üzvlüyündən xaric edilməsini, bilavasitə partiya sədri M.Mirəlioğlunun təkidi nəticəsində baş tutduğunu iddia edib. Belə ki, Gülalıyev KXCP sədrinə seçkilərə qatılmamaq və "boykot" etmək çağırışı edib. Halbuki Mirəlioğlu daha öncə, seçkilərə qatılmaq barədə qərarlarının olduğunu demişdi. Lakin sonradan KXCP ali məclisinin növbədənkənar iclası keçirilib və orada əksqərar qəbul olunub. Bundan sonra M.Mirəlioğlu bu məsələnin altından O.Gülalıyevin çıxdığını öyrənib və təkidlə həmin iclasdan tələb edib ki, Gülalıyev bütün vəzifələrindən uzaqlaşdırılsın. Beləliklə, bəlli olur ki, sözügedən qərar, yəni seçkilərə qatılmamaq qərarı sədrin istəyi əleyhinə verilib.

### Oqtay Gülalıyev: "Fərqindəyəm ki, bu cəza mənim "Milli Şura"dakı fəaliyyətimlə bağlıdır"

Digər maraqlı məqam O.Gülalıyevin ali məclisin növbədənkənar iclasında iştirak etməməsidir ki, M.Mirəlioğlu partiyadaxili opponentinin iclasda olmamasına rəğmən, onun haqqında istefa qərarının verilməsini tələb edib. Bu barədə Gülalıyev özü də yazıb: "Bu dəfə sədr mənim məclis üzvlüyünə namizədliyimi onun tərəfindən 1/3-lə (prosedur qayda-R.R.) irəli sürdüyünü bildirərək, indi də namizədliyini geri çəkdiyini qeyd edib və məclis üzvlərindən xahiş edib ki, onun təklifinə səs versinlər. Özünün iştirakı olmadan şəxsə aid məsələnin müzakirəsinin kobud nizamnamə pozuntusu olduğu dəfələrlə sədrə xatırladılsa da, o, inadından əl çəkməyib. Beləliklə, bəyənmədiyimiz Sovet dövründən fərqli olaraq, özümün iştirakım olmadan, məni dinləmədən məlum çağırışıma görə, KXCP ali məclisinin üzvlüyündən xaric ediblər. Təbii ki, fərqindəyəm ki, bu "cəza" orda deyildiyi kimi, həm də mənim "Milli Şura"dakı fəaliyyətimlə bağlıdır".

### Baş verənlər ənənəvi düşərgədəki real və acınacaqlı vəziyyətin tam sübutudur

KXCP-dəki mənbə isə bildirib ki, O.Gülalıyev sonradan M.Mirəlioğlu ilə görüşmək istəyib, hətta təşkilatın ofisində gözləyib. Lakin Mirəlioğlu qarşı tərəfi görərkən ona "rədd ol" deyərək, qərargahdan qovub.

Sonradan mətbuata açıqlama verən M.Mirəlioğlu bildirib ki, O.Gülalıyev partiyanın nizamnaməsini pozub və destruktiv fəaliyyətlə məşğul olub. Ona görə də, ali məclis üzvlüyündən xaric edilib. Beləliklə, KXCP-nin sıravi üzvünə çevrilən Gülalıyevin yaxın vaxtlarda ümumiyyətlə, bu təşkilatdan çıxarılacağını bəri başdan ehtimal etmək olar. Baş verənlər isə, söz yox ki, ənənəvi düşərgədəki real və acınacaqlı vəziyyətin tam sübutudur.

**R. RƏSULOV**

# Orduxan Teymurxana daha bir sübut

## *Milli satqının qardaşının 600 minlik obyekti üzə çıxıb*



Avropada "siyasi mühacir" adı altında, erməni lobbisinin maliyyə dəstəyi ilə Azərbaycanın dövlətçiliyi əleyhinə çıxış edən blogger Orduxan Teymurxanın (Bəbirov) işğalçıların Qərbi Azərbaycanda və Dağlıq Qarabağ ərazilərimizdə məzarlıqlarımızı, məscidlərimizi dağıtmamaları, guya onların heç də vandal olmamaları ətrafında irəli sürdüyü iddialarının ardınca, bu Vətən xaini haqqında növbəti fakt üzə çıxıb. O.Teymurxan ermənilərin sifarişi ilə guya Azərbaycanda vəziyyətin ağır olmasından da danışaraq, bu istiqamətdə lobbi qarşısında xal toplamağa çalışır. Əbəs deyil ki, bu satqın demək olar ki, günaşırı, hətta hər gün dövlətimizə, xalqımızın maraqlarına qarşı ən iyrənc üsullarla iftiralar atır, videolar hazırlayıb və onları sosial şəbəkədə paylaşır.

Bu arada onun barəsində növbəti fakt üzə çıxıb. O. Teymurxanın qardaşı Bəbir Bəbirovun Bakının Suraxanı rayonu ərazisində bazar qiyməti 600 min dolları təşkil edən böyük obyekti fəaliyyət göstərir. Bu obyekt idman-əyləncə, iaşə və istirahət məkanı kimi tanınır. Eyni zamanda, Orduxanın qardaşına məxsus bir neçə ev və avtomobillər də mövcuddur. Bu zaman milli satqına ünvanlanacaq belə bir sual yaranır ki, əgər onun iddia etdiyi kimi, Azərbaycanda insanların sosial durumu ağırdırsa, onun qardaş və bacıları hansı vasitələrlə normal həyat qurub, bu ölkədə firavan yaşayırlar? Məgər ortada olan növbəti fakt hər şeyi tam çılpaqlığı ilə üzə çıxarmırmı?

**RÖVŞƏN**

# "Nar" Texniki Universitetin ən yaxşı tələbələrini mükafatlandırdı



***"Nar" özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində Azərbaycan Texniki Universiteti (AzTU) ilə əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Azərbaycan Texniki Universitetində xüsusi avadanlıqlarla təchiz edilən "Nar" laboratoriyasını istismara vermiş mobil operator AzTU ilə olan əlaqələrini müxtəlif istiqamətlərdə inkişaf etdirir.***

Universitet ötən semestrdə Radiotexnika və rabitə fakültəsinin ən yaxşı nəticə göstərmiş tələbələrinin adlarını artıq elan edib. Tədris semestrinin ən yaxşı 3 tələbəsi - Nuranə Vaqif qızı Gülhəsənli, Tarverdi İmran oğlu Tağıyev və Könül Cavanşir qızı Əhmədova müvafiq olaraq 1-ci, 2-ci və 3-cü yerləri tutmaqla "Nar" tərəfindən xüsusi hədiyyələrə layiq görülüblər. Təhsil və maarifləşmənin inkişafına xüsusi önəm verən "Nar" bu təşəbbüsü ilə tələbələrə dərslərində daha uğurlu olmaları üçün əlavə stimul verməyə davam edir.

Xatırladaq ki, Azərbaycan Texniki Universiteti ilə imzalanmış tərəfdaşlıq müqaviləsi çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası yaradılmış, tələbələr GSM sahəsi üzrə müxtəlif nəzəri biliklər və təcrübə əldə etmək fürsəti qazanmışlar. "Nar"-ın müasir telekommunikasiya avadanlığının quraşdırıldığı xüsusi laboratoriyada peşəkar texniki işçi heyəti tərəfindən tələbələr üçün təlimlər və seminarlar keçirilir. Proqram çərçivəsində praktiki biliklərini inkişaf etdirən bir qrup gənc ixtisaslı kadr kimi yetişmək üçün mobil operatorda ilk addımlarını atmışdır. Universitetdəki laboratoriyanın təchizatı və tələbələr üçün nəzərdə tutulmuş təcrübə proqramı "Nar"-ın gənclər və təhsilə yönəlmiş KSM strategiyası çərçivəsində həyata keçirilir.

Mobil operatorun KSM strategiyası haqqında ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək mümkündür.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilmişdir. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilmişdir. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim etmiş və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə vermişdir. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim etmişdir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Külli miqdarda narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb

Polis əməkdaşları narkotiklərə qarşı qətiyyətli tədbirləri davam etdirirlər. Ötən gün bu istiqamətdə keçirilən tədbirlər nəticəsində yüksək təsiredici xüsusiyyətə malik olan külli miqdarda narkotik vasitə aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Mingəçevir Şəhər Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər sakini Pərvinə Əkbərova heroin satarkən cinayət başında yaxalanıb. Polis əməkdaşları tərəfindən onun yaşadığı evdə aparılan əməliyyat-axtarış tədbirləri zamanı əlavə olaraq yarım kiloqrama yaxın marixuana, tiryək, heroin və metamfetamin aşkarlanaraq götürülüb.

Davam etdirilən tədbirlərlə həmin qadının narkotiki əldə etdiyi mənbə də müəyyənləşdirilib. Görülmüş tədbirlərlə narkotik vasitəni ona satmaqda şübhəli bilinən Yevlax rayon sakini, əvvəllər məhkum olunmuş Ceyhun Məmmədzadə saxlanılıb. Onun yaşadığı evdə aparılan əməliyyat-axtarış tədbirləri zamanı heroin aşkar edilərək götürülüb. Yevlax Rayon Polis Şöbəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Aran qəsəbə sakini, əvvəllər məhkum olunmuş Rafiq Məmmədov saxlanılıb. Şəxsi axtarış zamanı ondan 496 qram marixuana aşkarlanıb. Saxlanılan şəxslər və maddi sübutlar istintaqa təhvil verilib. Faktlarla bağlı cinayət işləri başlanılıb.

# Azərbaycanda mülkiyyət hüququnun xitamı və müdafiəsi

***Mülkiyyət hüququ ən qədim hüquqlardandır. 1793-cü il Fransa Konstitusiyasında göstərilirdi ki, mülkiyyət hüququ hər bir vətəndaşa məxsusdur və o öz istədiyi kimi, bu hüquqdan istifadə edə bilər. Yəni bütün insanların mülkiyyəti toxunulmazdır və əgər bir gün hansısa şəxs tərəfindən bu toxunulmazlıq pozularsa, o zaman dövlət bu hüququn bərpa edilməsi baxımından müəyyən addımlar atır. Mülkiyyət hüququ Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsində öz əksini tapmışdır. Azərbaycan Respublikasının Mülki Məcəlləsində mülkiyyət hüququnun anlayışı bu cürdür: "Mülkiyyət hüququ-subyektin ona mənsub əmlaka öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək, ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur." Bu 3 hərəkət: sahiblik, istifadə və sərəncam vermək Qədim Roma hüquqşünasları tərəfindən müəyyənləşdirilib. Müasir dövrdə bunlara tələb hüququ da əlavə olunub.***

Azərbaycan Mülki Qanunvericiliyinə əsasən, mülkiyyət hüququnun itirilməsinin (xitamının) aşağıdakı növləri mövcuddur:

**1.** Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat yazısının ləğv edilməsi.

**2.** Mülkiyyətçisinin mülkiyyət hüququndan imtina etməsi.

**3.** Öhdəliklər üzrə tutmanın əmlaka yönəldilməsi;

**4.** Əmlakın özgəninkiləşdirilməsi;

**5.** Daşınmaz əmlakın özgəninkiləşdirilməsi;

**6.** Mədəni sərvətlərin satın alınması;

**7.** Rekvizisiya;

**8.** Müsadirə.

Azərbaycan Konstitusiyasında mülkiyyətin toxunulmazlığı, vətəndaşların şəxsi işlərinə özbaşına müdaxilənin yolverilməzliyi, mülki hüquqların maneəsiz həyata keçirilməsi, mülkiyyət hüququnun bütün formalarının bərabərliyi və s. prinsipləri təsbit edilmişdir. 1.Mülkiyyət hüququnun müdafiəsi dedikdə, bu hüquqların pozulmasının aradan qaldırılmasına, mülkiyyətçinin pozulmuş hüquqlarının bərpasına və onun hüquqlarının müdafiəsinə yönəldilmiş, mülki qanunvericilikdə nəzərdə tutulan vasitələrin məcmusu başa düşülür. Göstərilən vasitələr özünün hüquqi təbiətinə görə bir neçə qrupa bölünür. Mülkiyyət hüququnun müdafiəsi vasitələri içərisində mülki hüquqi iddialar əsas yer tutur. Bundan başqa, mülkiyyət hüququnun etiraf edilməsi iddiaları da müdafiə olunur.

**2.** Mülkiyyət hüququnun müdafiəsinin ikinci - mülki-hüquqi vasitələr qrupu öhdəlik xarakterli vasitələrdir. Onlara, məsələn, mülkiyyətçiyə dəymiş zərərin ödənilməsi, əsassız olaraq əldə edilmiş əmlakın alınması iddiaları və s. aiddir. Mülkiyyətçi əmlakı icarəyə verdikdə, öz hüquqlarını müqavilə hüququ normaları ilə müdafiə edir.

**3.** Mülkiyyət hüququnun müdafiəsinin mülki-hüquqi vasitələrinin üçüncü qrupu mülki hüququn müxtəlif institutlarından irəli gəlir. Buraya xəbərsiz itkin düşmüş şəxsin əmlakının mühafizəsi və qanunun tələblərinə müvafiq olmayan bağlanan əqdlərdə tərəflərin mənafelərinin müdafiəsi aiddir.

**4.** Mülki-hüquqi vasitələrin dördüncü qrupuna qanunla müəyyən olunmuş qaydada mülkiyyət hüququna xitam verilməsi zamanı mülkiyyətçinin mənafelərinin müdafiəsinə yönələn vasitələr daxildir. "Azərbaycan Respublikası və ya Naxçıvan Muxtar Respublikası mülkiyyət hüququ"na xitam verən qanunvericilik aktları qəbul etdikdə, həmin aktların qəbul olunması nəticəsində, mülkiyyətçiyə dəyən zərərin əvəzi məhkəmənin qərarı ilə Azərbaycan Respublikası tərəfindən tam həcmdə ödənilir. Dövlət idarəetmə orqanları və ya yerli orqanlar tərəfindən qanuna uyğun gəlməyən aktın qəbul edilməsi nəticəsində, mülkiyyətçinin və başqa şəxslərin onlara məxsus əmlaka sahiblik, ondan istifadə və onun barəsində sərəncam hüquqları pozularsa, həmin akt mülkiyyətçinin və ya hüquqları pozulan şəxsin iddiasına əsasən, məhkəmə tərəfindən etibarsız sayıla bilər. Dövlət orqanının mülkiyyətçidən əmlakın, bilavasitə alınmasına yönəldilən qərarı ilə əlaqədar olaraq, mülkiyyət hüququna xitam verilməsinə, yalnız Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən olunmuş hallarda və qaydada yol verilir. Bu zaman mülkiyyətçiyə eyni dəyərə malik əmlak verilir və ya dəymiş zərərin əvəzi tam həcmdə ödənilir. Mülkiyyətçi, mülkiyyət hüququna xitam verən qərarla razılaşmadıqda, məhkəmə mübahisəni həll edənədək, həmin qərar icra edilə bilməz.

**5.** Mülkiyyət hüququnun müdafiə olunmasının mülki-hüquqi vasitələrindən biridə vindikasiya iddiasıdır. Vindikasiya iddiası dedikdə (lat. Vim dicere - güc tətbiq etmək haqqında xəbərdarlıq etmə), əmlakın, ona sahiblik etməyən mülkiyyətçinin faktiki sahiblik edəndən, naturada qaytarılması haqqında müqavilədən kənar tələbi başa düşülür. Qanuna görə vindikasiya iddiasının irəli sürülməsi üçün aşağıdakı şərtlər olmalıdır:

1. Mülkiyyətçi öz əmlakına faktiki sahiblikdən məhrum olunmalıdır.

**2.** Vindikasiya iddiasının irəli sürülməsi üçün mühüm şərtlərdən biri də mülkiyyətçinin ona dəymiş zərərin ödənilməsi tələbini irəli sürmək hüququna malik olmasıdır.

**3.** Vindikasiya iddiası müqavilə öhdəliklərindən irəli gəlmir, o, mülkiyyət hüququnu mütləq subyektiv hüquq kimi müdafiə edir. Vindikasiya iddiasına əmlaka sahibliyini itirmiş mülkiyyətçi malikdir. Bununla yanaşı olaraq, vindikasiya tələbi mülkiyyətçi olmasa da, qanuna və müqaviləyə əsasən, əmlaka sahiblik edənə də məxsus ola bilər.

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 157.3-cü maddəsinə əsasən, əmlak onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əvəzli əldə edildikdə və əldə edən bunu bilmədikdə, mülkiyyətçi bu əmlakı əldə edəndən, ancaq o halda tələb edə bilər ki, əmlak mülkiyyətçinin özü tərəfindən və ya mülkiyyətçinin sahibliyə verdiyi şəxs tərəfindən itirilmiş və ya onların hər hansı birindən oğurlanmış olsun və ya özlərinin iradəsindən asılı olmayaraq, başqa yolla onların sahibliyindən çıxmış olsun.

Mülkiyyətçi əmlakı vicdanla əldə edən şəxsdən aşağıdakı 3 şərtdən biri mövcud olduqda, tələb edə bilər: 1. Əmlak mülkiyyətçi tərəfindən və ya onun razılığı ilə sahibliyinə verilmiş şəxs tərəfindən itirilmiş olduqda. 2. Əmlak hər birindən oğurlanmış olduqda. 3. Əmlak, onların iradəsindən asılı olmayaraq, sair yollarla onların sahibliyindən çıxmış olduqda. Göstərilən bu üç şərtdən biri mövcud olarsa, mülkiyyətçi öz əmlakını vicdanlı sahibindən geri tələb edə bilər. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edərkən, bu şəxsin əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu halda (vicdansız sahib), əmlakın onda olduğu bütün vaxt ərzində onun götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini də tələb edə bilər; vicdanlı sahibdən isə, onun əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu vaxtdan və ya əmlakın qaytarılmasına dair mülkiyyətçinin iddiası üzrə çağırış vərəqəsini aldığı vaxtdan götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini tələb edə bilər."

Mülkiyyətçi özünün bütün pozulmuş hüquqlarının müdafiə edilməsini neqator iddia ilə də təmin edə bilər (lat actio neqotoria - inkar etmə iddiası). "Neqator iddia dedikdə, mülkiyyətçinin ona məxsus olan əmlakdan istifadə və onun üzərində sərəncam səlahiyyətlərinin həyata keçirilməsinə mane olan pozuntuların aradan qaldırılması haqqında üçüncü şəxsə qarşı müqavilədən kənar tələbi başa düşülür." Mülkiyyət hüququnun həyata keçirilməsinə özünün qanunazidd hərəkətləri ilə mane olan şəxs cavabdeh qismindədir. Neqator iddianın predmeti sahiblikdən məhrumetmə ilə əlaqədar olmayan pozuntunun aradan qaldırılmasına yönələn iddiaçının tələbidir. Neqator iddianın əsasını iddiaçının əmlakdan istifadə, barəsində sərəncam hüquqlarının əsasları və bu səlahiyyətlərin həyata keçirilməsinə üçüncü şəxsin fəaliyyəti ilə maneə yarandığını təsdiqləyən şərtlər təşkil edir. İddia hüquq pozuntusunun davam etdiyi və onun nəticələrinin aradan qaldırılmadığı müddətdə qaldırıla bilər. Mülkiyyət hüququnun həyata keçirilməsinə olan maneələr aradan qaldırıldıqdan sonra, neqator müdafiə üçün əsaslar aradan qalxmış olur. Deməli, vindikasiya iddiasından fərqli olaraq neqator iddia üzrə hüquq münasibətləri iddia müddətinin təsirinə məruz qalmır. Burada hüquq pozuntusunun başvermə müddəti əhəmiyyət kəsb etmir, çünki iddia bu pozuntunun davam etdiyi vaxtda istənilən anda qaldırıla bilər. Əgər üçüncü şəxs özünün hərəkətlərinin hüquqa uyğun olduğunu sübut edərsə, neqator iddianın təmini rədd edilir.

Vindikasiya və neqator iddialardan başqa, mülkiyyət hüququnun müdafiəsi mülkiyyət hüququnun etiraf edilməsi haqqında iddia ilə də təmin oluna bilər. Bu cür iddialar daha çox məhkəmə praktikasında işlədilir və onların böyük əksəriyyəti tərəflərin nisbi hüquq münasibətlərindən əmələ gəlir. Belə münasibətlər müqavilə öhdəlikləri, vərəsəlik hüququ normaları və s. ilə tənzimlənir. Mülkiyyət hüququnun etiraf edilməsi iddiası dedikdə, mübahisəli əmlak üzərində iddiaçının mülkiyyət hüququ faktının üçüncü şəxslər qarşısında təsdiq edilməsi və tanınması ilə bağlı müqavilədən kənar tələbi başa düşülür. Mülkiyyət hüququnun etiraf edilməsi haqqında iddianın predmeti cavabdehdən hər hansı bir öhdəliyin icrasını tələb etməyən, yalnız iddiaçının mülkiyyət hüququnun və başqa əşya hüquqlarının tanınması faktının təsdiqi hesab olunur. Mülkiyyət hüququnun etiraf edilməsi hüquqda şübhələri dağıdır, hüquqda lazım olan inamı təmin edir, tərəflər arasında hüquq münasibətlərinə aydınlıq gətirir, əmlak üzərində sahiblik, ondan istifadə və barəsində sərəncam səlahiyyətlərinin həyata keçirilməsinin əsaslarına xidmət edir. İddianın əsasını iddiaçının əmlak üzərində mülkiyyət və s. əşya hüquqlarının olmasını təsdiq edən hallar təşkil edir. Mülkiyyət hüququnun müdafiəsinin onun etiraf edilməsi yolu ilə təmin olunmasının əsas şərti iddiaçının əmlaka öz hüquqlarının təsdiq etməsidir. Bu, onun əmlaka mülkiyyət hüququnu təsdiq edən hüquq təsdiqedici sənədlərdən, habelə, mübahisəli əşyanın ona məxsus olmasını təsdiq edən digər vasitələrdən irəli gələ bilər. Neqator iddiada olduğu kimi, mülkiyyət hüququnun etiraf edilməsi haqqında iddia üzrə hüquq münasibətlərinə də iddia müddəti təsir etmir. Belə ki, iddia müddətinin keçməsindən asılı olmayaraq, pozulmuş hüququn müdafiə edilməsinə dair tələb istənilən vaxt baxılmaq üçün məhkəmə tərəfindən qəbul edilir. Bütün yuxarıda göstərilənlərdən belə nəticəyə gəlmək lazımdır ki, mülkiyyətin və digər əşya hüquqlarının müdafiəsi üçün qanunvericilik tərəfindən lazımi və təsirli üsullar müəyyən edilmişdir. Bu üsullarla ölkəmizdə mülkiyyətin konstitusiya ilə təsbit edilmiş formaları müdafiə edilir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 24 fevral


## Yara gec sağalır?- Təhlükəli simptom

Hər bir insan travmalar, kəsiklər, sıyrıntılar, yaralarla üzləşir. Bəzən insan fikir verir ki, yara uzun müddət ərzində sağalmır. Bu təhlükəli simptomdur. Diqqətli olun!



Bəzən yaraların gec sağalması çox ciddi xəstəliklərin simptomu ola bilər. Beləliklə, hansı səbəblərə görə yaralar gec sağalır?

- Əgər yara uzun müddət ərzində sağalmırsa, bu yaraya infeksiyanın düşməsindən xəbər verə bilər. Bu halda yara şışır, qızarır, ağrıyır, bədən hərarəti qalxa bilər. Bu təhlükəli haldır. Xəstə mütləq cərraha müraciət etməlidir.

- Şəkərli diabet zamanı yaralar çox gec sağalır. Bu diabetin ilk simptomlarından biridir. Yaralar gec sağalırsa, mütləq qanda şəkərin səviyyəsini yoxlayın.

- Avitaminoz və hipovitaminoz (vitamin və mineralların çatışmazlığı) da yaraların gec sağalmasına səbəb ola bilər.

- İmmun sisteminin zəifləməsi, immunodefisitlər zamanı yaralar çox gec sağalır. Bu səbəbdən əgər yaralar çox gec sağalırsa, bu insanın immun sistemində olan pozulmalardan xəbər verə bilər.

- Spirtli içkilərin daim qəbulu yaraların daha gec sağalmasına səbəb ola bilər.

- Bəzi dərman preparatları (aspirin, ibuprofen və digər iltihabəleyhinə preparatlar) qanın laxtalanmasını azaldır və nəticədə yaralar daha gec sağalır.

- Natamam qidalanma, aclıq yaraların gec sağalmasına səbəb olur. Yaraları bağlayan kollagen liflərinin sintezi üçün orqanizm kifayət miqdarlarda zülalları, kabohidratları, yağları almalıdır. A və C vitaminləri, bəzi minerallar da yaraların sağalması üçün çox vacibdir.

- Yaşlı insanların orqanizmində bir çox proseslər ləngiyir. Bu, o cümlədən, yaraların daha gec sağalmasında özünü büruzə verir. Hamı bilir ki, uşağın orqanizmi çox tez bərpa olunur, istənilən yara, cızıq və s. çox tez sağalır. Yaşlı insanlarda isə əksinə.

- Qan dövranı pozulmaları yaraların gec sağalmasına səbəb ola bilər. Bu pozulmalar ürək-damar sistemi xəstəlikləri zamanı inkişaf edir.

## ELAN

Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının Bağlar Təsərrüfatının İnkişafı və İstismarı Birliyinin vətəndaş Məmmədova Svetlana Abbasəli qızının adına Mərdəkan qəsəbəsində yerləşən 340 a nömrəli bağ sahəsinin istifadəyə verilməsi barədə müqavilə itdiyi üçün etibarsız sayılır.

X X X

Bakı Şəhər İcra Hakimiyyəti Başçısı Aparatının Bağlar Təsərrüfatının İnkişafı və İstismarı Birliyinin vətəndaş Məmmədov Faiq Nəzər oğlunun adına Mərdəkan qəsəbəsində yerləşən 341 nömrəli bağ sahəsinin istifadəyə verilməsi barədə müqavilə itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Feyzili Ülkər Şaiq qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Sosial-psixoloji xidmət ixtisası üzrə II kurs tələbəsi Pirməmmədov Çingiz Fazil oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

X X X

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Sosial-psixoloji xidmət ixtisası üzrə II kurs tələbəsi İbrahimli Aytac Rövşən qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Anatoli Banişevskinin xatirəsi yad edilib



Fevralın 23-ü "Neftçi"nin əfsanəvi futbolçusu Anatoli Banişevskinin anadan olmasının 72 ildönümüdür. AZƏRTAC xəbər verir ki, bu münasibətlə "Neftçi" futbol klubunun prezidenti Kamran Quliyev, Müşahidə Şurasının sədri Çingiz Abdullayev, şuranın üzvləri, AFFA-nın və futbol ictimaiyyətinin nümayəndələri Anatoli Banişevskinin məzarını ziyarət ediblər. Ziyarətçilər əfsanəvi futbolçunun məzarı önünə gül dəstələri qoyub, onunla bağlı xatirələri bölüşüblər.

## "Azərbaycan millisi Moldovadan güclüdür"

"Əvvəlki iki oyunda yaxşı rəqiblərlə qarşılaşmışdıq. Onların hər ikisi - həm Cənubi Koreya, həm də Azərbaycan hazırda Moldovadan daha güclüdürlər. Amma biz rəqiblərə fikir vermirik. Öz oyunumuzu formalaşdırmalıyıq". Qol.az-ın məlumatına görə, bu sözləri Moldova millisinin baş məşqçisi Aleksandr Spiridon moldfootball.com-a müsahibəsində deyib. O bildirib ki, futbolçuları millimizlə keçirdikləri yoxlama görüşündə (0:0) daha yaxşı oyun nümayiş etdiriblər: " Çox şeyi dəyişdirmək lazımdır. Futbolçular bunun üçün çalışırlar. Cənubi Koreya və Azərbaycanla matçda yığmanın oyununda dəyişikliklər görə bildiniz. Mən də bundan razı qaldım. Cənubi Koreya ilə matçla müqayisədə Azərbaycanla görüşdə daha yaxşı oynadıq. Həmin matçda 3-4 real qol imkanını əldən verdik. O şanslardan yararlana bilsəydik, uşaqlar indi psixoloji cəhətdən özlərini daha inamlı hiss edərdilər".

## Arbeloa: "Zidanın yerində olsaydım..."



İspaniya mətbuatı hesab edir ki, mövsümün sonunda "Real" Qaret Beyli satacaq. SİA-nın məlumatına görə, 2013-cü ildə 85 milyon funta "Tottenhem"dən transfer edilən uelsli ulduz son vaxtlar çoxsaylı zədələrdən əziyyət çəkir. Madrid klubunun sabiq müdafiəçisi Arbeloa isə onun hələ də komandaya lazımlı oyunçu olduğuna inanır: "Beylin "Real"da qalmaq şanslarını itirdiyini və ya pis günlərini yaşadığını düşünmürəm. Zidanın yerində olsaydım, Qaretə tam qayğı göstərərdim. Onun zədə problemləri stabil oynamasına mane olur. Qarşıdakı aylarda heyətdəki bütün futbolçulara ehtiyac yaranacaq".




## AL-də 1/8 finalın bütün iştirakçıları müəyyənləşib

UEFA Avropa Liqasının 1/16 final mərhələsinin növbəti görüşləri keçirilib. SİA-nın məlumatına görə, mərhələnin cavab oyunları çərçivəsində 15 görüş oynanılıb. Günün maraqlı qarşılaşmalarından biri Londonda baş tutub. İsveçin "Ostersund" klubu səfərdə "Arsenal"ı 3:1 hesabı ilə məğlubiyyətə uğradıb. Məğlubiyyətə baxmayaraq, Arsen Vengerin komandası səkkizdəbir finala yüksəlib. Bolqarıstanın "Ludoqorets" komandası isə İtaliyada "Milan" ilə üz-üzə gəlib. Öz meydanında rəqibinə 0:3 hesabı ilə məğlub olan bolqarlar səfərdə də rəqibləri ilə bacarmayıblar - 0:1. Bununla da "Milan" klubu növbəti mərhələyə vəsiqə qazanıb. İtaliyanın "Atalanta" komandası isə doğma meydanda "Borussiya" ilə bacarmayıb - 1:1. "Vilyarreal" (İspaniya) klubu isə Fransanın "Lion" komandasına məğlub olub - 0:1.



## "Mançester Siti" "Real" və "Yuventus"a rəqib oldu

"Tottenhem"in hücumçusu Harri Keyn daha bir klubun maraq dairəsinə düşüb. Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı məlumata görə, İngiltərə Premyer Liqasının hazırkı lideri "Mançester Siti" də ulduz futbolçunu transfer etmək istəyir. "Şəhərlilər"in bu keçid üçün 200 milyon funt-sterlinq ödəməyə hazır olduğu iddia olunur. Qeyd edək ki, transfer qiyməti 250 milyon avro olan Keynlə "Real" və "Yuventus" da yaxından maraqlanır.


**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**